4 mart 2022 №18 (1891)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qədimlik və müasirlik – Bakının xüsusi aurası qorunmalıdır



İçərişəhər bizim milli sərvətimizdir, dünya memarlıq tarixinin möhtəşəm abidəsidir, Azərbaycan xalqının istedadının bariz nümunəsidir. Əsrlər boyu Azərbaycan xalqı İçərişəhəri, onun içində olan tarixi abidələri qoruyub və bundan sonra da əsrlər boyu qoruyacaq. İçərişəhərin hər bir küçəsi, hər bir tini, hər bir daşı qiymətlidir, tarixi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyev bu sözləri martın 3-də Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib.

Qeyd edək ki, martın 3-də dövlət başçısının müvafiq sərəncamları ilə Əsgər Əyyub oğlu Ələkbərov "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri vəzifəsindən azad edilib, bu vəzifəyə Şahin Kamil oğlu Seyidzadə təyin olunub.

Dövlət başçısı vurğulayıb ki, dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur: "Düzdür, dünyanın bir neçə ölkəsində köhnə şəhər məhəllələri vardır, onların bir neçəsində mən olmuşam. Amma tam əminliklə deyə bilərəm ki, İçərişəhər kimi ikinci məkan, ikinci yer dünyada yoxdur. Bu, bizim tarixi irsimizdir, biz İçərişəhəri göz bəbəyimiz kimi qorumalıyıq və əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz".

*davamı səh. 2-də*

## Tarixin yadigarları sənət əsərləri kimi muzeyləri bəzəyir

### Kanadada yaşayan soydaşımızın Milli Xalça Muzeyinə hədiyyə etdiyi əl işlərinin təqdimatı

Martın 3-də Azərbaycan Milli Xalça Muzeyində Kanadada yaşayan soydaşımızın, tanınmış silah ustası Emin Məmmədovun muzeyə bağışladığı yeni əl işlərinin təqdimatı keçirildi.

Əvvəlcə tədbir iştirakçıları muzeyə hədiyyə edilən nümunələrlə tanış oldular.

Milli Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova təqdim olunan əl işləri haqqında məlumat verdi. Bildirdi ki, bu gün Emin Məmmədovun muzeyə hədiyyə etdiyi 11 ədəd soyuq silah nümunəsindən bir neçəsi ictimaiyyətə təqdim olunur. Bu unikal əl işləri sırasında XVIII əsrin sonuna aid, Qacarlar dövründə geniş yayılmış iki qalxan, XIX əsrə məxsus xəncər, həmçinin sənətkarın müəllifi olduğu qılınc və xəncərlər var. Böyük ustalıqla, yüksək zövqlə polad və tuncdan hazırlanmış qalxanlar incə, zəngin nəbati naxışlarla bəzədilib. Bu qalxanlar döyüş məqsədilə deyil, xüsusi mərasimlər üçün hazırlanır və dövrün yüksəkvəzifəli şəxslərinə hədiyyə edilirdi.

Muzeyin direktoru vurğuladı ki, silah ustasının "Şəmşir" qılıncı və Qaşqay xəncər dəsti 2000-ci illərdə polad, dəri, ağac, buynuz kimi materiallardan hazırlanıb. Onların tiyələri üzərində "Azərbaycan" sözü və sənətkarın adı həkk edilib.

Təqdimat mərasimində çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirdi ki, Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyası milli mədəni irs nümunələri ilə davamlı olaraq zənginləşir. Kanadada yaşayıb-yaradan Emin Məmmədov da bu işə öz töhfəsini verir. Yeni-yeni unikal sənət nümunələri yaradan sənətkar böyük xeyirxahlıq göstərərək onları doğma vətənindəki muzeyə bağışlayır.



Nazir qeyd etdi ki, hazırda Azərbaycanın mədəniyyət strategiyasının əsas hədəflərindən biri maddi-mənəvi irsimizin qorunub saxlanılması və inkişaf etdirilməsidir.

*davamı səh. 2-də*

## "Teatr baharı" – müstəqil teatrların festivalı

Təbiət donunu təzələyir, qış yavaş-yavaş yerini bahara verir. Düzdü, bu günlər dünyanın savaşlı, qan-qadalı, qlobal qorxulu böyük bir coğrafiyasında bu elə də hiss edilmir. Üstəlik, getgedə qloballaşan hərb havası mədəniyyət, sənət üzərində hakim olmaqdadır. Amma tarixin bütün zamanlarında, dünyanın ən ağır savaş sınaqlarında, seçim qarşısında məşhur "Olum, ya ölüm?" zühur edib və çətinliklə də olsa, "olum" qalib gəlib. Sənət, mədəniyyət və onun ən diri, ən emosional təsirli və təbii forması olan teatr da...

Bizim teatr səhnəmizdə ikiillik pandemiyadan sonra sənət özünün vacib olduğunu uzaq-yaxın ətrafına isbata can atır. "Teatr baharı" sloqanı ilə başlayan festival da fəsli-baharı səhnədən duymaq istəyənlər üçün fürsətdir.



Martın 2-də Mədəniyyət Nazirliyinin dəstəyi və nazirlik yanında İctimai Şuranın təşkilatçılığı ilə I Müstəqil Teatrlar Festivalının açılışı oldu.

Festivalın məqsədi ölkədəki teatr mühitinin yeni adlar və formalarla zənginləşməsinə, səhnə sənətinin gənclər arasında populyarlaşması və təşviqinə töhfə verməkdir.

R.Behbudov adına Dövlət Mahnı Teatrının zalını dolduran tamaşaçılar qarşısına ilk olaraq layihənin təşkilatçılarından biri, Xalq artisti, Dövlət Yuğ Teatrının aktyoru və müstəqil "M.Teatr"ın yaradıcısı Vidadi Həsənov çıxdı.

Sözünə dost Ukraynada davam edən qanlı hadisələrlə başlayan aktyor tamaşaçılardan münaqişə zamanı dünyasını dəyişənlərin bir dəqiqəlik sükutla yad edilməsini xahiş etdi. Sənətkar bəşəriyyətin xilasına ümid etdiyini bildirdi, mədəniyyətin, sənətin barışdırıcı, birləşdirici missiyasından danışdı.

*davamı səh. 3-də*

## Azad edilmiş ərazilərə missiya göndərilməsi üçün UNESCO ilə danışıqlar aparılır

Azərbaycanın mədəni irsi torpaqlarımızın Ermənistan tərəfindən işğalı nəticəsində məhv edilib. Yaşayış məskənləri, tarixi, dini və mədəni abidələrimiz dağıdılıb.

Xarici işlər naziri Ceyhun Bayramov bu sözləri martın 2-də BMT İnsan Hüquqları Şurasının 49-cu sessiyasında çıxışı zamanı deyib.

Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycan mənşəyindən asılı olmayaraq, azad edilmiş ərazilərdəki bütün mədəni və dini abidələrin ən yüksək səviyyədə bərpasına çalışır. Diqqətə çatdırılıb ki, ölkəmiz münaqişədən zərər çəkmiş ərazilərinə müstəqil UNESCO texniki missiyasının göndərilməsi ilə bağlı danışıqlar aparır.

## Ukraynadan dörd milyona yaxın insan qaçqın düşə bilər

Rusiyanın Ukraynaya hücumu nəticəsində iki milyondan çox insan evini tərk etmək məcburiyyətində qalıb.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Mişel Baçelet bu barədə martın 3-də Cenevrədə BMT İnsan Hüquqları Şurasının 49-cu sessiyasının xüsusi iclasında çıxışı zamanı deyib.

O qeyd edib ki, BMT Qaçqınlar üzrə Ali Komissarlığının hesablamalarına görə, indiyədək bir milyon insan ölkə daxilində məcburi köçkün vəziyyətinə düşüb. Bir milyondan çox ukraynalı isə müharibə başlayandan (24 fevral) sonra qonşu ölkələrə keçib. Qarşıdurma davam edərsə, yaxın həftələrdə dörd milyona yaxın insan ölkəni tərk edə bilər.

*davamı səh. 2-də*

## "Bir xalqın tarixi – bütün dünya üçün"

Azərbaycan Milli Xalça Muzeyində Bakıda doğulub boya-başa çatmış israilli rəssam Rami Meirin "Bir xalqın tarixi – bütün dünya üçün" adlı sərgisi açılıb.

Martın 1-də sərginin açılış mərasimində çıxış edən Milli Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova bildirdi ki, Bakıda anadan olan Rami Meir uzun illərdir xaricdə yaşayır, uğurlu yaradıcılıq fəaliyyəti ilə məşğuldur. Lakin o, doğma yurdu Azərbaycanı sevir və yaradıcılığında tərənnüm edir.

Qeyd edildi ki, əslən dağ yəhudisi olan rəssamın ölkəmizdə ilk fərdi sərgisi keçirilir. Ekspozisiyada Rami Meirin yaradıcılıq universallığını əks etdirən "Dağ yəhudiləri" silsiləsi üzrə 30-dan artıq tablo, metal üzərində döymə texnikasında panno, ağac üzərində oyma nümunələri, dekorativ sikkələr yer alıb. Rəssamın "Qırmızı qəsəbədən Quba xalçaçıları" adlı rəngkarlıq əsəri əsasında xüsusi olaraq bu sərgi üçün toxunmuş xalça nümayiş olunur. Çoxfiqurlu portret-xalça Rami Meir və "Azərxalça" ASC-nin birgə layihəsi çərçivəsində Bakıda hazırlanıb.



*davamı səh. 8-də*




## Azərbaycanlı və özbək şairlərin poeziya məclisi

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü və layihəsi əsasında iki ölkənin gənc şairlərinin iştirakı ilə "Məclisi-fəramuşan" adlı poeziya görüşləri keçiriləcək.

*səh. 3*

## Turizm marşrutları mədəni təbliğata necə töhfə verə bilər?

Çağdaş dünyada ənənəvi, sırf istirahət niyyətli turist səfərləri ilə yanaşı, məşhur tarixi şəxsiyyətlərin həyat və fəaliyyəti ilə tanışlıq məqsədli turlar da geniş yayılıb. Yeni turizmdən mədəni təbliğat vasitəsi kimi də istifadə olunur. Bunlara misal kimi Səmərqənddə Əmir Teymurun və yaxınlarının uyuduğu məvzoley, Londonda Şekspir, Praqada Frans Kafka, Budapeştdə Şandor Petefi, Sankt-Peterburqda Dostoyevski, Moskvada Puşkin, Yesenin və digərlərinin xatirə muzeylərini göstərə bilərik.

Bakıda və ölkəmizin ayrı-ayrı regionlarında da görkəmli şəxsiyyətlərin xatirə muzeyləri, həyat və yaradıcılıqları ilə bağlı məkanlar çoxdur. Bu baxımdan belə məkanlar üzrə turizm marşrutunun təşkili bizdə nə dərəcədə faydalı ola bilər?



Bu məsələ ilə bağlı Azərbaycan Turizm Bürosu (ATB) Turizm məhsulu sektorunun müdiri Şərifə Həsənovanın fikirlərini öyrəndik. O bildirdi ki, qurum tərəfindən bu istiqamətdə turizm marşrutu hazırlanıb. Marşrut Mstislav Rostropoviç, Müslüm Maqomayev, Tahir Salahov kimi görkəmli sənətkarların Bakı həyatı ilə bağlı məkanları əhatə edir.

*davamı səh. 4-də*

## "Üç ozan bir arada"

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu türk xalqlarının çoxəsrlik mədəniyyətini, tarixini tanıtmaq məqsədilə "Üç ozan bir arada" adlı yeni layihə həyata keçirib.

Fonddan bildirilib ki, layihə çərçivəsində Türk dünyasının üç böyük şairi – Yunus Əmrə, Aşıq Ələsgər, Jambıl Jabayevin yubiley tarixləri ilə əlaqədar poçt markası çap olunub. Marka Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərpoçt" MMC-nin birgə əməkdaşlığı nəticəsində dövriyyəyə buraxılıb.




Layihə türk ədəbiyyatının böyük söz sənətkarı Yunus Əmrənin vəfatının 700-cü ildönümünə, Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin 200 illik yubileyinə, Qazaxıstanın görkəmli şairi Jambıl Jabayevin 175 illik yubileyinə həsr olunub. Layihə Türk dünyasının böyük söz ustadlarının tanıdılması və təbliği məqsədi daşıyır.

Şairlərin portretlərinin əks olunduğu markanın müəllifi azərbaycanlı rəssam Orxan Qarayevdir.

### Lənkəran teatrında "Haqqın 44 günü"



*səh. 3*

### Mədəniyyət naziri Astarada vətəndaşları qəbul edəcək

*səh. 4*

### Həyata kitabla addımla



*səh. 5*

## Əlaqələndirmə Qərargahının tərkibi yenilənib və genişlənib

Prezident İlham Əliyevin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının tərkibində dəyişiklik edilib. Dövlət başçısı bununla bağlı martın 3-də sərəncam imzalayıb.

Sərəncama əsasən, Əlaqələndirmə Qərargahının üzvləri sırasına Baş nazirin müavini Şahin Mustafayev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, energetika naziri Pərviz Şahbazov, Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov daxil ediliblər.

Həmçinin Əlaqələndirmə Qərargahı yaranandan sonra ötən müddətdə üzvlərlə bağlı müvafiq vəzifə dəyişiklikləri sərəncamda əksini tapıb. O cümlədən 2020-ci il 24 noyabr tarixində Əlaqələndirmə Qərargahı yaradılanda mədəniyyət nazirinin birinci müavini olmuş Anar Kərimov, "Azərkosmos" ASC-nin sədri olmuş Rəşad Nəbiyev yenilənən tərkibdə hazırkı vəzifələri (mədəniyyət naziri, rəqəmsal inkişaf və nəqliyyat naziri) ilə qeyd ediliblər.

## Tarixin yadigarları sənət əsərləri kimi muzeyləri bəzəyir

*əvvəli səh. 1-də*



"Xaricdə olan dəyərli irs nümunələrimizin ölkəyə qaytarılması çox əhəmiyyətlidir. Mədəniyyət Nazirliyi olaraq bu işdə səylərimizi daha da artırmışıq. Ötən il Azərbaycanın üç xalçasını hərraclardan alaraq ölkəmizə gətirdik. Onların ikisini Milli Xalça Muzeyinə, birini Milli İncəsənət Muzeyinə hədiyyə etdik. Ölkəmiz və mədəniyyətimiz üçün xüsusi əhəmiyyət kəsb edən bu işdə əməyi olan Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Heydər Əliyev Fondu başda olmaqla bütün təşkilatlara, azərbaycanlı və xarici mesenatlara, kolleksiyaçılara dərin təşəkkürümüzü bildiririk...", – deyə Anar Kərimov qeyd etdi.

Nazir çıxışının sonunda Emin Məmmədova bu xeyirxah təşəbbüsünə görə təşəkkür etdi, ona peşəsində yeni uğurlar arzuladı.

Daha sonra çıxış edən AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun baş direktoru, tarix üzrə elmlər doktoru, professor Kərim Şükürov Azərbaycanda silah sənətinin çox dərin kökləri olduğunu söylədi. Bildirdi ki, silah nümunələri hərb tariximizin simvolu olmaqla yanaşı, gözəl bədii tərtibatı ilə sənət əsəri kimi də qiymətlidir.

Sonda Emin Məmmədov çıxış edərək göstərilən diqqətə görə tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

Qeyd edək ki, Kanada vətəndaşı olan Emin Məmmədov Azərbaycanın qədim silahsazlıq sənəti ənənələrini yaşadır, bu sahədə tədqiqat və təbliğat aparır. O, 2021-ci ildə UNESCO tərəfindən Parisdə təşkil olunan "Sülh üçün mədəniyyət" (Culture for Peace) müsabiqəsində birinci yerə layiq görülüb.

**Nurəddin**

## Qarabağa kitabla qayıdaq!

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tərəfindən 44 günlük müharibədə erməni işğalından azad olunmuş ərazilərimizdə kitabxanaların fondlarının bərpası ilə əlaqədar Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə keçirdiyi kampaniya davam edir.




Martın 3-də kitabtoplama kampaniyasına Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) da qoşulub.

Bəstəkarlar İttifaqı tərəfindən "Qarabağa kitabla qayıdaq!" kampaniyası üçün 22 nüsxə kitab və 54 nüsxə Azərbaycan bəstəkarları və musiqiçiləri haqqında bukletlər hədiyyə edilib. Kitablar ABİ əməkdaşları tərəfindən Milli Kitabxanaya təqdim olunub.

İşğaldan azad olunan bölgələrdə kitabxana fondlarının bərpasına kömək məqsədilə həyata keçirilən aksiyanın əhəmiyyəti vurğulanıb.

## Ukraynadan dörd milyona yaxın insan qaçqın düşə bilər

*əvvəli səh. 1-də*

BMT-nin İnsan Hüquqları Şurasının Ukraynadakı vəziyyətlə bağlı xüsusi iclasında Ukrayna nümayəndə heyətinin təqdim etdiyi və Qərb ölkələri tərəfindən dəstəklənən qətnamə layihəsi müzakirəyə çıxarılıb.

Bir gün öncə isə BMT Baş Assambleyasının xüsusi sessiyası çərçivəsində Rusiyanın Ukraynada hərbi əməliyyatlarını pisləyən qətnamə qəbul edilib. 141 ölkənin lehinə səs verdiyi qətnamədə Rusiyadan hərbi əməliyyatları dərhal dayandırmaq tələb edilir.

Rusiya müharibə bölgəsinə humanitar yardım çatdırılmasına icazə verməlidir. Bunu isə Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen martın 3-də Slovakiya Baş naziri Eduard Heger ilə birgə keçirdiyi mətbuat konfransında deyib.

"Humanitar dəhlizlər açılmalıdır. Mülki şəxslərin mühasirəyə alınmış şəhərləri təhlükəsiz tərk etməsinə icazə verilməlidir", – deyə o vurğulayıb.

Qeyd edək ki, son bir neçə gündə Ukraynanın Rusiya qoşunları tərəfindən zəbt olunmuş və mühasirəyə alınmış şəhərlərində vəziyyət humanitar fəlakət həddinə çatıb.

Hərbi əməliyyatların getdiyi bölgələrdən dinc sakinlərin humanitar dəhlizlərlə çıxarılması məsələsi martın 3-də Rusiya Prezidenti Vladimir Putin və Fransa Prezidenti Emmanuel Makron arasında telefon danışığında da müzakirə edilib.

Martın 3-də Belarusun Brest vilayətində – Belovej meşəsində Rusiya-Ukrayna danışıqlarının ikinci raundu keçirilib. Görüşün sonunda tərəflərin humanitar dəhlizlərin açılması və müvəqqəti atəşkəslə bağlı razılığa gəldiyi bildirilib.

# Qədimlik və müasirlik – Bakının xüsusi aurası qorunmalıdır

### Prezident "İçərişəhər" qoruğunun yeni rəhbərinə tapşırıqlar verib



*əvvəli səh. 1-də*

Bir neçə il əvvəl imzaladığı sərəncamla İçərişəhərdə xüsusi idarəetmə mexanizminin yaradıldığını diqqətə çatdıran İlham Əliyev qeyd edib ki, İçərişəhər Bakı şəhərinin özəyidir: "İnzibati nöqteyi-nəzərdən İçərişəhər müstəqil inzibati vahiddir, ancaq Bakı şəhərinin bir hissəsidir. Bakı şəhərinin gözəlliyi bu gün heç kimə sirr deyil və Bakıya gələn hər bir xarici qonaq Bakıya heyran olur. Əminəm ki, hər gələn, xüsusilə ilk dəfə Bakıya gələn xarici qonaq mütləq İçərişəhərə baş çəkir, İçərişəhərlə, orada yerləşən abidələrlə tanış olur və bir daha görür ki, Azərbaycan xalqı böyük xalqdır, qədim xalqdır, istedadlı xalqdır. Ancaq böyük və istedadlı xalq belə möhtəşəm, dünya əhəmiyyətli abidə yarada bilər. Bir daha demək istəyirəm ki, İçərişəhərin hər bir hissəsi, hər bir guşəsi əhəmiyyətlidir və eyni zamanda, İçərişəhər, sadəcə olaraq, açıq səma altında muzey deyil. İçərişəhərdə insanlar yaşayır, əsrlər boyu yaşayıb. Hamımız yaxşı bilirik ki, Bakının təməli məhz İçərişəhərdə qoyulubdur və qədim dövrlərdə Qala divarlarının kənarında heç bir tikili yox idi".

Prezident qeyd edib ki, bu gün də İçərişəhərdə insanlar yaşayır və onların rahatlığı üçün işlər görülür. Eyni zamanda, İçərişəhər həm Bakı sakinləri, həm bütün Azərbaycan vətəndaşları, xarici qonaqlar üçün çox cəlbedici yerdir və məhz buna görə İçərişəhərə hər gün böyük axın var: "Bütün bunları nəzərə alaraq işlər elə qurulmalıdır ki, orada yaşayan insanlar əziyyət çəkməsinlər, eyni zamanda, turistlər, qonaqlar üçün də lazımi şərait yaradılsın. Son illər ərzində bu istiqamətdə böyük işlər görülübdür. İçərişəhərin tarixi simasının qorunması şəxsən mənim nəzarətimdədir və əminəm ki, sizin rəhbərliyinizlə İdarə qarşıda duran yeni vəzifələri uğurla icra edəcək. İçərişəhər əbədi yaşayacaq və yaşamalıdır. Biz də, bizdən sonra gələn nəsillər də haqlı olaraq İçərişəhərlə fəxr edəcəklər".

### Bakının memarlığını eybəcər tikililərlə korlamağa yol verilməyəcək

Bakı şəhərinin unikal memarlıq ansamblına malik olduğunu deyən İlham Əliyev bildirib ki, həm coğrafi yerləşmə, həm Xəzər dənizinin kənarında yerləşməsi, eyni zamanda qədim abidələr, tarixi abidələr, müasir memarlıq nümunələri Bakıda xüsusi bir aura yaradır. Hər gələn qonaq görür ki, Bakıda qədimliklə müasirlik arasında vəhdət var. Bakı inkişaf edir, böyüyür və son vaxtlar Bakının memarlıq məsələlərinə xüsusi diqqət göstərilir.

"Vaxt var idi ki, Bakıda inşa edilən eybəcər, yöndəmsiz binalar göbələk kimi üzə çıxırdı. Heç bir memarlıq normalarına uyğun gəlməyən, heç bir memarlıq əmsallarına cavab verməyən bu yöndəmsiz binalar Bakının bəzi yerlərinin simasını, əfsuslar olsun ki, mənfiyə doğru dəyişmişdir. Ancaq son vaxtlar bu məsələyə ciddi nəzarət var. Dövlət tərəfindən bütün bu məsələlər tənzimlənir və icazəsiz, qanunsuz tikililərin sayı xeyli azalıbdır. Amma hələ də belə hallar var və mən bütün qurumları, dövlət qurumlarını və sahibkarları xəbərdar etmək istəyirəm ki, buna yol verilməyəcək. Xüsusilə sahibkarlara müraciət edirəm, qazanc dalınca getmək o demək deyil ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq. Biz buna imkan verməyəcəyik, qanunsuz tikililərə son qoyulmalıdır. Bu məsələyə nəzarət edən bütün orqanlar bu işlərə çox ciddi yanaşmalıdır – Bakı Şəhər İcra Hakimiyyəti, Bakı şəhərində yerləşən rayonların icra başçıları. Əminəm ki, bundan sonra Bakı vahid memarlıq konsepsiya əsasında inkişaf edəcək", – deyə dövlət başçısı əlavə edib.

Prezident vurğulayıb ki, son vaxtlar görülmüş tədbirlər nəticəsində Bakının memarlıq ansamblı xeyli sağlamlaşıb: "Bakı unikal şəhərdir, dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu hər kəs deyir, mənim aləmimdə Bakı dünyanın ən gözəl şəhəridir. Hamımız Bakını sevirik, Bakını qorumalıyıq və yenə də deyirəm, şəhər inkişaf etməlidir, ancaq planlı şəkildə. Bundan sonra da müasir memarlıq Bakının qədimliyini, o qədim tarixi simasını pozmamalıdır. Bu iki önəmli amil bir-birinə ziddiyyət təşkil etməməlidir, əksinə, qədimlik və müasirlik – Bakının xüsusi aurası qorunmalıdır və əminəm ki, biz buna nail olacağıq".

Dövlət başçısı onu da diqqətə çatdırıb ki, Bakının inkişafı və idarəetmə prinsipləri başqa şəhərlərdən fərqlənir. Bununla bağlı "İçərişəhər" qoruğu və Dənizkənarı bulvar üzrə ayrıca idarələr yaradılıb: "İndi Azərbaycan vətəndaşları, xüsusilə gənclər yəqin ki, bunu xatırlamır və ümumiyyətlə, görməyiblər ki, 10-15 il bundan əvvəl bulvarın vəziyyəti necə idi – qaranlıq, səliqəsizlik və heç bir şəhərə şərəf gətirməyən mənzərə. Biz indi bulvarın uzunluğunu 5 dəfə artırmışıq və bulvarın hər bir yerində səliqə-sahman var. Nə üçün? Çünki xüsusi idarə yaradılıb, o idarənin işi ancaq bulvara qulluq etmək, təmizliyi və bulvarın canlı orqanizm olmasını təmin etməkdir. Yəni, Bakı şəhərində mənim sərəncamlarımla yaradılmış xüsusi bir idarəetmə mexanizmi vardır, - Bakı şəhəri, İçərişəhər və Bulvar, – üç qurum. Əlbəttə, bu üç qurum arasında işgüzar əlaqələr, təbii ki, vardır, olmalıdır, güclənməlidir. Çünki İçərişəhərdə olan insan – ya yerli vətəndaş, ya qonaq o qədim məkandan çıxıb bulvara keçməklə tam yeni bir Bakı görür, müasir bir Bakı görür. Bax, bu amillər çox önəmlidir. Ona görə siz də, təbii ki, öz fəaliyyətinizdə bu iki qurumla sıx əlaqədə olmalısınız, onlar da sizinlə. Çünki Bakı, onun bütün yerləri, hər bir guşəsi bizim üçün doğmadır, əzizdir. Əminəm ki, Bakı bundan sonra daha da gözəl şəhər olacaq. Bakıda yeni inşa edilən binalar – istər yaşayış binaları, istər ictimai binalar, ticarət obyektləri, iaşə obyektləri ən yüksək memarlıq zövqünə uyğun olmalıdır. Bu işlərə dövlət qurumları nəzarət etməlidir ki, bundan sonra Bakı ancaq gözəlləşsin...".

Prezident bu istiqamətdə "İçərişəhər" qoruğu rəhbərliyinin üzərinə böyük vəzifə düşdüyünü vurğulayaraq, Şahin Seyidzadəyə işində uğurlar arzulayıb.

Şahin Seyidzadə göstərilən etimada görə dövlət başçısına təşəkkürünü bildirib.

# Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyi qeyd olunub

### Təşkilatın ekspertləri azad olunmuş ərazilərdə qiymətləndirmə missiyasında iştirak edəcəklər





Martın 2-də BMT-Azərbaycan tərəfdaşlığının 30 illiyinə həsr olunmuş fotosərginin açılış mərasimi keçirilib. BMT-nin Azərbaycandakı Ofisinin binası yaxınlığında açıq havada (BMT-nin 50 illiyi küçəsi) xüsusi banerlərdə əlaqələrin inkişaf tarixini əks etdirən 100-dək foto nümayiş olunur.

Tədbirdə çıxış edən BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Vladanka Andreyeva bildirib ki, 30 il bundan əvvəl, 1992-ci il martın 2-də Azərbaycan BMT-nin üzvlüyünə qəbul olunub: "Azərbaycan bu 30 il ərzində çox böyük nailiyyətlər qazanıb və BMT-nin təsbit olunmuş gündəliyinə hər zaman əməl edib".

Vladanka Andreyeva diqqətə çatdırıb ki, BMT-nin Azərbaycandakı nümayəndəliyi bu gündən birillik kampaniyaya start verir. 30 illik əməkdaşlığımızın ildönümü günündə burada 100-dək foto nümayiş etdirilir. Bu fotolarda tərəflər arasında sadiqlik, bir-birinə hörmətlə yanaşma, səmərəli əməkdaşlıq əksini tapıb.

BMT-nin nümayəndəsi qurumun koronavirus pandemiyasından sonra və postmünaqişə dövründə bərpa məsələlərində Azərbaycana dəstəyini davam etdirəcəyini bildirib. Qeyd olunub ki, Azərbaycanla BMT arasında münasibətlərin qurulmasının 30 illiyinə həsr edilmiş tədbirlər çərçivəsində yüksək səviyyəli dialoqun keçirilməsi planlaşdırılır. Dialoq çərçivəsində pandemiyadan sonrakı və postmünaqişə dövründə əməkdaşlıq müzakirə olunacaq. Tədbirlər çərçivəsində xeyriyyə yarmarkası da təşkil ediləcək.

Rezident əlaqələndirici bildirib ki, bu ay BMT, Dünya Bankı və Avropa İttifaqı ekspertlərinin yer aldığı qiymətləndirmə missiyası Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər edəcək. V.Andreyevanın sözlərinə görə, martın 7-dən 17-dək Azərbaycanda olacaq heyət hökumətlə birlikdə azad olunmuş ərazilərdə qiymətləndirmə aparacaq. Məqsəd bu ərazilərin yenidən bərpası və minalardan təmizlənməsinə dair ən yaxşı planın nədən olduğunu öyrənməkdir.

Azərbaycanın BMT Nizamnaməsinə və gündəliyinə sadiqliyini hər zaman nümayiş etdirdiyini vurğulayan xarici işlər nazirinin müavini Elnur Məmmədov BMT-nin də öz növbəsində Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirib. Deyib ki, BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib.

Ölkəmiz qlobal səviyyəli məsələlərə daim önəm və diqqət yetirir. Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində təşkilatın yubileyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda koronavirus pandemiyasının törətdiyi çətinliklərdən danışıb, dövlətimizin başçısı vaksinlərin ədalətsiz bölgüsü məsələsinə toxunub. Ölkəmiz Qoşulmama Hərəkatının sədri kimi öz fəaliyyətini uğurla davam etdirir. Məhz Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə peyvənd millətçiliyinə qarşı BMT-də qətnamə qəbul edilib.

Azərbaycanın dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi üzrə BMT-nin çağırışlarına hörmətlə yanaşdığını vurğulayan nazir müavini BMT-nin ixtisaslaşmış qurumlarının işğaldan azad olunan ərazilərdə aparılan işlərdə iştirak edəcəklərini bildirib.

# Şuşa ilə bağlı filmlər rəqəmsal formatda bərpa ediləcək

Xəbər verdiyimiz kimi, dövlət başçısının 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsi ilə bağlı müvafiq sərəncamının icrası məqsədilə Nazirlər Kabineti tərəfindən Tədbirlər planı hazırlanaraq təsdiq olunub.

Beş bölmədən ibarət Tədbirlər planında audiovizual və çap materiallarının hazırlanması da ayrıca qeyd olunub. Bu bölmədə "Azərbaycan Dövlət Film Fondunda saxlanılan Şuşa ilə bağlı film və çəkilişlərin bərpası, onların nümayiş etdirilməsi" bəndi də yer alıb.

Dövlət Film Fondu ilə əlaqə saxlayıb bu istiqamətdə görüləcək işlər haqqında məlumat aldıq. Fondun Kino-arxiv şöbəsinin müdiri Rəşad Qasımov bildirdi ki, "Şuşa İli" ilə əlaqədar təsdiq olunmuş tədbirlər planına uyğun olaraq, fondun arxivində Şuşaya həsr edilmiş sənədli filmlər və xronika materiallarının bərpası və Şuşa şəhərində nümayişi ilə bağlı artıq hazırlıqlara başlanılıb: "Fonddakı Şuşa ilə bağlı bütün filmlər bərpa olunacaq və rəqəmsal varianta köçürüləcək. Fondun arxivində Şuşaya həsr olunmuş bir neçə sənədli film var. Bunlar "Şuşa", "Natəvan", "Bülbül", "Qarabağ yollarında" və digər filmlərdir ki, bu ekran əsərlərində Şuşa şəhərinin müxtəlif dövrlər üzrə görüntüləri yer alıb. Həmçinin bu filmlərdə Şuşanın tarixi Azərbaycan şəhəri olduğu və burada milli mədəniyyətimizin görkəmli simalarının yetişməsi haqqında ətraflı məlumatlar var. Qeyd edilən filmlərin hər biri Tədbirlər planına uyğun olaraq nümayiş etdiriləcək".

Şöbə müdiri onu da bildirdi ki, qeyd edilən ekran əsərlərindən əlavə, müxtəlif xronikal materiallarda və sənədli filmlərdə Şuşa ilə bağlı arxiv nümunələri əksini tapıb. Həmin xronikalardan kadrlar toplanaraq kiçik videoçarxlar şəklində ictimaiyyətə təqdim olunacaq.

**Lalə Azəri**

# Azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri yerində nəzərdən keçirilib

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Baş nazir Əli Əsədovun və Prezident Administrasiyasının, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin başçılığı altında aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyəti martın 1-2-də işğaldan azad edilmiş ərazilərdə səfərdə olub.

Əvvəlcə heyət Füzuli Beynəlxalq Hava Limanında olub. AZAL-ın prezidenti Cahangir Əsgərov heyət üzvlərini işğaldan azad edilmiş ərazilərdə hava limanlarının tikintisi işlərinin gedişi barədə məlumatlandırıb.

Sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev işğaldan azad olunmuş ərazilərin Ümumi Planı ilə əlaqədar görülmüş işlər barədə təqdimat edib.

Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanışlıqdan sonra "Azərenerji"nin Füzulidə yeni istismara verilən elektrik stansiyasına baxış olub. "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Qarabağ və Şərqi Zəngəzur regionunun mövcud və 2022-2026-cı illər üzrə perspektiv elektrik təchizat sxemi ilə bağlı ətraflı məlumat verib.




Nümayəndə heyətinin üzvləri Əhmədbəyli-Horadiz-Mincivan-Ağdərə avtomobil yolunda görülən işlərlə də tanış olublar. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov yolun texniki göstəriciləri barədə məlumatı diqqətə çatdırıb.

Daha sonra Horadiz-Cəbrayıl-Mincivan-Ağbənd avtomobil yolunda aparılan minatəmizləmə işlərinə baxış keçirilib. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov bu sahədə görülən işlər barədə danışıb.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev nümayəndə heyətini Horadiz-Ağbənd və Bərdə-Ağdam dəmiryolu xətlərində aparılan işlər barədə məlumatlandırıb.

Zəngilan rayonunda iqtisadiyyat naziri Mikayıl Cabbarov "Araz Vadisi İqtisadi Zonası"nda və Ağdam Sənaye Parkında görülən işlər barədə məlumat verib.

Heyət Zəngilan Beynəlxalq Hava Limanının inşası ilə bağlı işlərin gedişatına baxış keçirib. AZAL-ın prezidenti Cahangir Əsgərov bildirib ki, uçuş-enmə zolağının uzunluğu 3 min metr olan hava limanında tikinti işlərinə ötən ilin may ayında başlanılıb. Hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq. Tikinti işlərinin bu il tamamlanması planlaşdırılır.

Nümayəndə heyətinin üzvləri Zəngilan rayonunun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən bərpa işləri – "Ağıllı kənd" layihəsi ilə də tanış olublar. Kənd təsərrüfatı naziri İnam Kərimov diqqətə çatdırıb ki, bu, azad edilmiş ərazilərə qayıdışın ilk məntəqəsi olacaq.

Sonra Qubadlı rayonuna səfər edən nümayəndə heyəti burada Dövlət Sərhəd Xidmətinin Əlahiddə Sərhəd Diviziyasının xidməti şəraiti ilə tanış olub, silah-sursat və texnikaya baxış keçirib.

Martın 2-də Baş nazir Əli Əsədov və Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin və aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərinin iştirakı ilə Şuşa şəhərində işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən işlər üzrə müşavirə keçirilib. Görülən işlər və həyata keçirilən layihələr barədə ətraflı müzakirələr aparılıb, yerində bir sıra zəruri tapşırıqlar verilib.



Nümayəndə heyətinin üzvləri Şuşanın tarixi-mədəni abidələrini ziyarət ediblər. Şuşa şəhərində icra olunan layihələr, aparılan bərpa, abadlıq-quruculuq işləri barədə aidiyyəti qurumların rəhbər şəxsləri ətraflı məlumat verib.

Səfərin sonunda nümayəndə heyəti Xocavənd rayonuna səfər edib, Tuğ və Hadrutda aparılan quruculuq işləri ilə yerində tanış olub.

# "Akvarel təəssüratları"

## Beynəlxalq Akvarel Cəmiyyətinin 10 illiyinə həsr olunmuş satış-sərgi



Martın 1-də Xətai Sənət Mərkəzində "Akvarel təəssüratları" adlı akvarel əsərlərindən ibarət satış-sərgi təşkil edilib. Sərgi Milli Məclisin Mədəniyyət komitəsi, Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı (ARİ), Azərbaycan Dövlət Rəsm Qalereyası, Beynəlxalq Akvarel Cəmiyyəti (İWS) Azərbaycan nümayəndəliyi və Xətai Sənət Mərkəzi nəzdində akvarel qalereyasının təşkilatçılığı ilə keçirilib.

Tədbirdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, millət vəkili Razi Nurullayev, Beynəlxalq Suluboya Cəmiyyəti Azərbaycan nümayəndəliyinin həmsədri Səbinə İskəndər, Dövlət Rəsm Qalereyasının direktoru Qalib Qasımov, Xalq rəssamları – ARİ-nin katibi Ağaəli İbrahimov, Arif Hüseynov, sənətşünas, Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyev və Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov çıxış ediblər.

Bildirilib ki, ötən ilin dekabrında elan edilən sərgiyə 60-a yaxın rəssamın 80-dək əsəri təqdim olunub.

Sərgidə 20-yə yaxın əsər satılıb. Sonda əsəri sərgilənən rəssamlara hədiyyələr və sertifikatlar təqdim edilib.

Qeyd edək ki, Beynəlxalq Akvarel Cəmiyyətinin 10 illik yubileyinə həsr olunmuş sərgi ölkəmizdə suluboya sənətinin inkişafı, təbliği, bu sahədə çalışan rəssamların yaradıcılığının dəstəklənməsi məqsədilə təşkil edilib.

# "Teatr baharı" – müstəqil teatrların festivalı






əvvəli səh. 1-də

2-7 mart tarixini əhatə edən festivalın proqramı barədə danışan Vidadi Həsənov bildirdi ki, proqrama müxtəlif janr və üslubda 11 tamaşa daxil edilib. Vurğuladı ki, festival çərçivəsində müzakirə panelləri də təşkil olunacaq. Aktyor gələcəkdə festivalın coğrafiyasının genişlənməsində, bölgələrdə də təşkilində maraqlı olduqlarını dedi.

Sonra söz Mədəniyyət Nazirliyi İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin müdiri Fərəh Acalovaya verildi. O, nazirliyin ötən müddət ərzində teatr sahəsi, xüsusən müstəqil teatrların inkişafına yönələn təşəbbüslərini qeyd etdi. Festivalın təşkilinin təqdirəlayiq olduğunu deyən şöbə müdiri bundan sonra da nazirliyin teatrla bağlı layihələrində özəl teatrlara da geniş yer veriləcəyini vurğuladı.

Nazirliyin dəstək verdiyi festivallar, laboratoriya və ustad dərsləri, müstəqil mübadilə proqramları barədə söz açan F.Acalova təşkilatçılara təşəkkürünü bildirdi, iştirakçılara uğurlar arzuladı.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professorları – pedaqogika üzrə fəlsəfə doktoru, Əməkdar incəsənət xadimi, rejissor Fikrət Sultanov və Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, teatrşünas İlham Rəhimli festivalın müstəqil teatrların inkişafına müsbət təsir göstərəcəyini, bu işə maraq göstərən gənclərə stimul olacağını dedilər. Milli teatrımızın keçdiyi inkişaf yolu və onun ayrı-ayrı mərhələlərində yaranan və özünün yüksək inkişaf dövrünü yaşayan müstəqil teatrlara, həvəskar truppaların da fəaliyyətinə nəzər salındı. Bildirildi ki, məhz onların sayəsində ölkəmizdə teatrın janr və formaca müxtəlifliyinə nail olunub və hazırda istedadlı gənclər bu işi layiqincə davam etdirirlər.

Çıxışlarda dövlətlə yanaşı, sahibkarların, iri şirkətlərin də mədəniyyət, xüsusilə də teatr sahəsinə dəstək olmasının vacibliyinə diqqət çəkildi. Bu hamiliyin teatr dəyərlərinin yaşamasına stimul olacağı vurğulandı.

Millət vəkilləri Razi Nurullayev, Müşfiq Məmmədli, Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın sədri Gəray Əlibəyov da çıxışlarında teatrlara dəstək göstərilməsinin vacibliyini qeyd etdilər, bu istiqamətdə təşəbbüs və təkliflərini dilə gətirdilər.

Gecəyə rəng qatan vokalçılar – Fərid Əliyev və Vüqar Hacıyevin ifalarında milli və dünya klassik musiqisindən nümunələr alqışlarla qarşılandı.

Sonra növbə gecənin əsas səbəbkarlarına verildi.

İlk olaraq "Məsəl ya..." adlı səhnə işi təqdim olundu. "M.Teatr"ın ("Mənim teatrım") təqdim etdiyi akt Xalq artisti Vidadi Həsənovun rejissor yozumudur. Üzeyir Hacıbəylinin musiqiləri fonunda onun felyetonlarından və Mirzə Ələkbər Sabirin daim müasir şeirlərindən istifadə edilməklə hazırlanan tamaşa mükalimə janrındadır. Bizə özümüzü öldürücü gülüş və onun ardındakı düşündürücü dirilişi göstərən tamaşa izləyicilər tərəfindən alqışlarla qarşılandı.

Festivalın ilk günü eyni zamanda müstəqil "Laçın" teatr-studiyasının "Arzular bağı" tragikomediyası da nümayiş olundu. Tamaşa nümayişi və müxtəlif panellərdə müzakirələr festivalın ikinci günü də davam etdi. Teatrsevərlər "ŞahMat" teatrının təqdimatında "Üstdəki dərinliklər" (M.Vişnek) və "Səhnə" teatrının M.F.Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası əsasında hazırladığı "Bir dəfə Qarabağda" tamaşalarını izlədilər.

Sənət, səhnə zövqünə müstəqil teatrların eksperimentləri ilə rəng qatmaq istəyənlər martın 7-dək festival proqramında yer alan tamaşaları izləyə və açıq müzakirələrdə iştirak edə bilərlər.

**Həmidə Nizamiqızı**

# Lənkəran teatrında "Haqqın 44 günü"

Lənkəran Dövlət Dram Teatrında "Şuşa İli" çərçivəsində hazırlanmış "Haqqın 44 günü" adlı tamaşaya ictimai baxış keçirilib.

Vətən müharibəsində tarixi Zəfərimizi qəhrəmanlıq dastanı kimi təqdim edən səhnə əsərinə yerli ictimaiyyətin nümayəndələri ilə yanaşı Qarabağ qaziləri də tamaşa ediblər.

Teatrın baş rejissoru Anar Babalının sözlərinə görə, səhnə əsəri qısa müddətdə ərsəyə gətirilib. Tamaşada Birinci və İkinci Qarabağ müharibəsində baş verən hadisələr, xalqımızın igid oğullarının döyüşlərdə göstərdiyi şücaət obrazlı şəkildə əksini tapıb. Həmçinin müharibələrin xalqların taleyində, gündəlik həyat və məişətində yaratdığı çətinlik, ağrı-acılardan da bəhs olunur. Amma bütün bunlara baxmayaraq, müzəffər Ordumuz əzmkarlıq nümayiş etdirərək otuz ilə yaxın işğalda qalan torpaqlarımızı düşmən tapdağından azad etdi.

Tamaşanın müəllifi və quruluşçu rejissoru Anar Babalı, quruluşçu rəssamı Adil Əsədli, musiqi tərtibatçısı Fərahim Fərəcovdur.

Əsas rolları teatrın gənc aktyorları Səyyad Əliyev, Emil Rzayev, Gülər Kərimova, Şəbnəm Hüseynova, Aysel Cahangirova, Amil İbrahimov, Teymur Hacızadə və Günel Abbasova ifa edirlər.

Baxışdan sonra keçirilən müzakirələrdə Qarabağ qaziləri belə bir tamaşanın hazırlanmasından məmnun qaldıqlarını bildirərək yaradıcı kollektivə uğurlar diləyiblər.

Teatrın direktoru Tofiq Heydərovun sözlərinə görə, 10 mart – Milli Teatr Günündə səhnə əsərinin premyerası keçiriləcək. "Haqqın 44 günü" tamaşası həmçinin il ərzində respublikamızın müxtəlif bölgələrində nümayiş etdiriləcək.

# Azərbaycan-Türkiyə Yaradıcı Sənayelər Forumu keçiriləcək

Azərbaycan Yaradıcı Sənayelər Federasiyası İdarə heyətinin sədri Vasif Eyvazzadə martın 2-də Türkiyənin Bakıdakı Yunus Əmrə İnstitutunun rəhbəri Selçuk Karakılıç ilə görüşüb.



Görüşdə iki qardaş ölkə arasında yaradıcı sənayelər sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və gələcəkdə birgə layihələrin həyata keçirilməsi istiqamətində müzakirələr aparılıb.

Vasif Eyvazzadə ölkəmizdə yaradıcı sənayelər sahəsinin geniş imkanlara sahib olduğunu və bununla bağlı Türkiyə ilə də işbirliyinin gücləndirilməsinin vacibliyini qeyd edib.

Selçuk Karakılıç mədəniyyət və yaradıcı sənayelərin Türkiyə iqtisadiyyatında mühüm əhəmiyyət kəsb etdiyini, habelə iki ölkə arasında qarşılıqlı tərəfdaşlıq və tanınma layihələrinin genişləndirilməsinin zəruri olduğunu diqqətə çatdırıb.

Görüş zamanı Azərbaycan-Türkiyə Yaradıcı Sənayelər Forumunun təşkili, sahənin müxtəlif sektorları üzrə təlim proqramının, xüsusi tədqiqat layihəsinin həyata keçirilməsi və bu istiqamətdə yeniliklərin qarşılıqlı mübadiləsinin aparılması razılaşdırılıb.

# Azərbaycanlı və özbək şairlərin poeziya məclisi

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü və layihəsi əsasında iki ölkənin gənc şairlərinin iştirakı ilə "Məclisi-fəramuşan" adlı poeziya görüşləri keçiriləcək.

AMM-dən bildirilib ki, "Şuşa İli" ilə əlaqədar Özbəkistanda da tədbir və layihələrin həyata keçirilməsi nəzərdə tutulub. "Məclisi-fəramuşan" poeziya görüşü XIX əsrdə Qarabağda keçirilən şairlər məclisinin bir növ bərpasıdır. Gələcəkdə poeziya məclisində Türk dünyasının digər ölkələrinin də iştirakı nəzərdə tutulub.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, iki ölkənin Yazıçılar Birliyi, Dünya Gənc Türk Yazarlar Birliyi və Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin də dəstək göstərəcəyi layihənin məqsədi hər iki xalqın klassiklərini dərindən öyrənmək, şeirlər söyləmək, istedadlı gənc şairləri üzə çıxarmaq, poeziyanın aktual məsələlərinə dair fikir mübadiləsi aparmaq, ədəbi əlaqələri genişləndirməkdir.

Şairlər məclisi mart ayından başlayaraq dekabr ayına qədər davam edəcək. Məclis ayda bir dəfə olmaqla onlayn ("Zoom" proqramı) formada keçiriləcək. Avqust ayında məclis Azərbaycan mədəniyyətinin paytaxtı Şuşada təşkil olunacaq.

"Məclisi-fəramuşan" şairlər məclisində iştirakçıların yaş həddi 16-40 yaş olaraq müəyyənləşdirilib. Məclisdə iştirak etmək istəyən şairlər elan olunmuş mövzu üzrə şeiri ana dilində yazmalı, məclisdə oxumalıdır. Hər iştirakçı tərəfindən yalnız bir şeir məclisə təqdim edilə bilər. Milli-mənəvi dəyərlər, Vətənə, insana sevgi, humanizm, əxlaqi-tərbiyəvi məzmun daşıyan əsərlərə xüsusi önəm veriləcək.

Məclisdə iştirak üçün şeirlər Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin elektron poçtuna (culcenter.az@gmail.com) təqdim olunmalıdır. Münsiflər heyətinə hər iki ölkənin aidiyyəti yaradıcılıq təşkilatlarının təmsilçiləri, şairləri daxil edilib.

Hər ay keçiriləcək şairlər məclisində fəal şairlər üç ayın nəticəsinə əsasən seçiləcək və pul mükafatı, diplom, Şuşa şəhərinə ikigünlük səfər və həvəsləndirici hədiyyələrlə təltif olunacaq.

Məclisdə səsləndiriləcək şeirlər toplu halında Azərbaycan və özbək dillərinə tərcümə olunaraq nəşr ediləcək.

Qeyd edək ki, Azərbaycan poeziyasının inkişafında müxtəlif dövrlərdə yaranmış ədəbi məclislərin rolu böyük olub. Bu məclislər zaman-zaman müxtəlif şəhərlərdə fəaliyyət göstərib və bir çox şairlərin tanınmasında xüsusi rol oynayıb. 1872-ci ildə Azərbaycan mədəniyyətinin beşiyi Qarabağda – Şuşa şəhərində şair, ədəbiyyatşünas Mir Möhsün Nəvvabın evində əsası qoyulan "Məclisi-fəramuşan" şairlər məclisi 1910-cu ilədək fəaliyyət göstərib və dövrün tanınmış şairlərindən X.Natəvan, H.Qaradaği, F.Kəminə, A.Asi, B.Səbur, B.Fədai, habelə Qarabağ xanəndələri də bu məclisdə yaxından iştirak ediblər.

## Mədəniyyət naziri Astarada vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov tərəfindən 2022-ci il mart ayının 11-də saat 11:00-da Astara rayon Heydər Əliyev Mərkəzində Lənkəran, Lerik və Astara rayonlarından olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar nazirliyin info@culture.gov.az elektron poçt ünvanı və (012) 493-30-02 telefon nömrəsi vasitəsilə 9 mart 2022-ci il tarixinə qədər qəbula yazıla bilərlər.

Qəbula gəlmək istəyən vətəndaşların həmçinin aşağıda qeyd olunmuş əlaqələndirici şəxslərə müraciət etmələri tövsiyə olunur.

| Sıra №-si | Şəhər (rayon) | Əlaqələndirici şəxs | Əlaqə telefonu |
|---|---|---|---|
| 1. | Lənkəran | Kəkəyev Anar (Lənkəran RMİ, məsləhətçi) | (050) 243 68 43<br>(025) 255 43 21 |
| 2. | Lerik | Dənziyev Müqəddəs (Lənkəran RMİ, məsləhətçi) | (050) 682 32 69<br>(070) 282 32 69<br>(025) 274 62 09 |
| 3. | Astara | Bayramov Şadoğlan (Lənkəran RMİ, məsləhətçi) | (050) 324 24 10<br>(077) 324 24 10<br>(025) 225 31 40 |

## Vətən fədailəri unudulmur



Xaçmaz RMİ-nin rəisi Vüsal Hüseynov Vətən müharibəsi şəhidləri Beşir Abbasov və İsmət Hacıyevin ailələrini ziyarət edib. Görüş zamanı hər iki qəhrəmanımızın keçdiyi döyüş yoluna nəzər salınıb.

Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları "Vətən üçün oxu" layihəsi çərçivəsində Vətən müharibəsi şəhidi İlham Rəşidovun övladları ilə görüşüb, onlara kitablar hədiyyə ediblər.



Gəncə RMİ Goranboy rayon MKS-nin Tapqaraqoyunlu kənd kitabxana filialı və kənd orta məktəbinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi Hidi Vəliyevin doğum günü münasibəti ilə "Şəhidim, cənnətdəki ad günün mübarək" adlı tədbir keçirilib. Tədbirdə məktəblilərin ifasında "Vətən oğlu" adlı ədəbi-bədii kompozisiya təqdim edilib.

## "Anadır arzulara hər zaman Qarabağ"

### Regional idarə xor müsabiqəsi keçirəcək




Kürdəmir RMİ-nin təşkilatçılığı ilə "Anadır arzulara hər zaman Qarabağ" devizi altında regional xor müsabiqəsi keçiriləcək.

Müsabiqənin məqsədi ölkəmizdə zəngin xor ənənələrinin inkişaf etdirilməsi, uşaq musiqi və incəsənət məktəblərində xor fənninin tədrisi səviyyəsinin yüksəldilməsi, uşaqlarda bu sənətə maraq oyadılması, xormeysterlərin yaradıcılıq fəaliyyətinin təşviqi, eləcə də uşaqlarda vətənpərvərlik hisslərinin, Qarabağ-Şuşa mədəniyyətinin təbliğidir.

"Şuşa İli" çərçivəsində aprel ayında keçiriləcək müsabiqə iki turdan ibarət olacaq. Birinci tur Xocavənd rayon Uşaq musiqi məktəbində, ikinci tur Horadiz şəhər Muğam Mərkəzində təşkil olunacaq. Müsabiqənin yekun turunda incəsənət ustalarının konserti də nəzərdə tutulur.

Müsabiqədə iştirak etmək istəyən uşaq musiqi və incəsənət məktəbləri Kürdəmir RMİ-yə müraciət edə bilər.

## Şuşa – Qafqazın sənət məbədi




Şəki Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi Oğuz rayon MKS-nin Baş Daşağıl kənd kitabxana filialında "Şuşa İli" ilə əlaqədar sərgi təşkil edilib. Sərgidə bu il 270 illiyi qeyd olunan Şuşanın zəngin tarixi keçmişini, mədəni irsini, əsrarəngiz təbiətini əks etdirən foto və kitablar nümayiş etdirilib.

Bərdə RMİ Bərdə rayon Mədəniyyət Mərkəzində "Əziz Şuşa, sən azadsan!" adlı ədəbi-bədii gecə təşkil edilib. Tədbirdə RMİ-nin rəis müavini Validə Nabatova çıxış edərək Şuşa şəhərinin tarixi, Azərbaycanın mədəni və ictimai-siyasi həyatındakı yeri barədə ətraflı söz açıb. Bərdə şəhər 1 nömrəli Uşaq incəsənət məktəbinin şagirdləri tərəfindən "Şuşa İli"nə həsr olunmuş rəsmlər nümayiş olunub, ədəb-bədii kompozisiya təqdim edilib.

Gəncə RMİ Goranboy rayon Heydər Əliyev Mərkəzində Mərkəzi Kitabxananın birgə təşkilatçılığı ilə "Şuşa – Qarabağın döyünən ürəyi" mövzusunda ədəbi-bədii kompozisiya təqdim olunub.

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzində "Şuşa – Qafqazın sənət məbədi" layihəsi çərçivəsində məktəblilər arasında bilik yarışı təşkil edilib. Yarışda Masallı şəhər 1, 2 və 3 saylı, Mahmudavar və Dəmirçi kənd məktəblərinin 8-11-ci sinif şagirdləri iştirak ediblər. Mərkəzin əməkdaşı Gülcahan



Vəkilzadənin moderatorluğu ilə keçən yarışda şagirdlər mədəniyyət paytaxtımızla bağlı sualları cavablandırıblar. Qalib olan Mahmudavar kənd məktəbinin komandasına fəxri fərman, bütün komandalara isə iştiraka görə təşəkkürnamə təqdim edilib.



Şəmkir RMİ-nin təşkilatçılığı ilə Şəmkir şəhər Heydər Əliyev Mərkəzində xalq çalğı alətləri ifaçıları, xanəndəlik, fortepiano ixtisasları və xor kollektivləri arasında "Şuşa" musiqi festivalının I turu keçirilib. Birinci mərhələdə regional idarənin tabeliyində fəaliyyət göstərən 8 uşaq musiqi, incəsənət və aşıq məktəblərindən 9 ixtisas üzrə 120 nəfər şagird çıxış edib.

Sabirabad RMİ Hacıqabul rayon MKS-nin 1, 2, 3, 4, 5 saylı şəhər kitabxana filiallarının birgə təşkilatçılığı ilə "Sən azadsan, Şuşa!" adlı şeir qiraəti müsabiqəsi keçirilib.

Ağdaş RMİ Göyçay şəhər A.Məmmədov adına Uşaq musiqi məktəbində "Şuşa İli" adlı bədii-musiqili tədbir keçirilib. Tədbirdə Şuşa ilə bağlı videoçarxlar nümayiş etdirilib. Şagirdlər muğam sədaları altında Şuşaya həsr olunmuş şeirlər söyləyiblər.

## Novruz çərşənbələri ilə bağlı tədbirlər

Novruzun ikinci çərşənbəsi olan Od çərşənbəsi də yerlərdə şənliklər, müxtəlif tədbirlərlə qeyd olunub.



Gəncə RMİ Gəncə şəhər 4 nömrəli Uşaq musiqi məktəbində Od çərşənbəsi qeyd olunub. Gəncə RMİ-nin rəisi Vasif Cənnətovun da qatıldığı şənlikdə məktəbin xalq çalğı alətləri ansamblı, "Xarıbülbül" vokal, "Fidanlar" muğam qrupları, eləcə də məktəbin müəllimlərinin ifasında maraqlı musiqi proqramı, həmçinin rəqslər və Novruz adətləri ilə bağlı səhnəciklər təqdim edilib.



İsmayıllı şəhərinin mərkəzi meydanında təşkil edilən şənlikdə İsmayıllı RMİ-nin rəhbərliyi və kollektivi, rayon ictimaiyyəti iştirak edib. F.Əzimov adına Uşaq incəsənət məktəbinin "Çingiz" ritm və xoreoqrafiya qrupu, müəllim kollektivi, İsmayıllı Humanitar və Texnologiya Kollecinin tələbələri, "İsmayıllı inciləri" rəqs qrupunun çıxışları maraqla qarşılanıb. Uşaqlar əl-ələ tutaraq bayram tonqalının ətrafında yallı gediblər.

Şəki RMİ Zaqatala rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Novruz adətlərinin əhəmiyyətindən və Od çərşənbəsi haqqında söhbət açılıb.

Biləsuvar RMİ və Biləsuvar Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Təzəkənd kəndində bayram tədbiri keçirilib. İcra Hakimiyyətinin başçısı Faiq Qürbətovun da iştirak etdiyi tədbirdə Lənkəran RMİ-nin "Nənələr" və "Rəfti" folklor kollektivləri, Masallı RMİ-nin "Halay" rəqs qrupu və Biləsuvar rayon Mədəniyyət Mərkəzi musiqiçilərinin hazırladıqları konsert proqramı təqdim olunub.




Xaçmaz RMİ Siyəzən rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə mərkəzin özfəaliyyət kollektivi konsert proqramı ilə çıxış edib.

## Xırdalandakı musiqi məktəbi pilot layihəyə qoşulub

Sumqayıt RMİ-nin əhatə etdiyi Abşeron rayon Mədəniyyət Mərkəzində musiqi məktəbləri nəzdində elektron musiqi üzrə təlimlərin təşkilinə dair müşavirə keçirilib.

İdarənin rəisi Rəşad Əliyev bildirib ki, müasir bədii təhsildə ilk baza təhsili alanlar həm də gələcəyin müəllimidir və onların hazırlığının məzmun və forması informasiya texnologiyalarının sürətli inkişafı ilə uzlaşmalıdır. Bununla yanaşı, bədii təhsildə müasir təlim metodlarının, innovasiyaların tətbiqi ilə yeniyetmə və gənclərin maraq, meyil və bacarıqlarının, intellektual səviyyə və yaradıcılıq qabiliyyətlərinin inkişafına nail olunması mümkündür.



Mədəniyyət sahəsi üzrə ekspert, Əməkdar incəsənət xadimi Cahangir Səlimxanov elektron musiqi bacarıqlarının gənclər tərəfindən mənimsənilməsinin əhəmiyyəti və xüsusiyyətləri barədə məlumat verib.

Sonra pilot layihə kimi Xırdalan şəhər onbirillik Musiqi məktəbində "Ableton live" proqramı əsasında elektron musiqi kurslarının açılması müzakirə olunub. Dünyada geniş yayılan həmin proqram musiqini bəstələmək, aranjiman, redaktə və ifa etmək üçün imkanlar yaradır. Hazırda "Ableton" şirkətinin təşəbbüsü ilə dünya üzrə məktəblərdə proqramdan ödənişsiz istifadə üçün şərait yaradılmaqdadır. Ölkəmizdən bu proqrama qoşulmaq istəyən ilk təhsil ocağı Xırdalandakı musiqi məktəbidir.

Bildirilib ki, elektron musiqi kurslarının təşkili şəhərin mədəni mənzərəsinə innovativ elementlərin gətirilməsinə, gənclərin yaradıcı sahədə özlərini tapmasına xidmət edəcək.

**Hazırladı: N.Məmmədli**

*əvvəli səh. 1-də*

## Turizm marşrutları mədəni təbliğata necə töhfə verə bilər?

### Bakıda yaşamış məşhurların sorağında

"Bakıda yaşamış məşhurların izi ilə" adlı turizm marşrutu ilə qonaqlar paytaxt küçələrini gəzməklə həmin insanların həyat və yaradıcılıqlarının izlərini özündə yaşadan evlər, binalar, mədəniyyət məkanları ilə tanış ola biləcəklər. Tur zamanı turistlərin üz tutacağı ilk məkan Mstislav Rostropoviçin Bakıdakı ev-muzeyi olacaq. Görkəmli musiqiçinin doğulduğu və ilk uşaqlıq illərini keçirdiyi bu evdə Rostropoviçlər ailəsinə məxsus dəyərli eksponatlar nümayiş olunur. Tahir Salahovun İçərişəhərdəki ev-muzeyində isə qonaqlar XX əsr Azərbaycan rəssamlığının ən məşhur nümayəndələrindən birinin rənglər dünyasına səyahət edəcəklər. Turistlər dahi rəssamın əsərlərinin bir çoxu ilə Milli İncəsənət Muzeyində də tanış ola biləcəklər".

Sektor müdiri bildirdi ki, tur zamanı qonaqların Azərbaycan Dövlət Akademik Filarmoniyası, Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı kimi mədəniyyət ocaqlarına da baş çəkmək imkanları olacaq.





Bu məkanlar turun həsr olunduğu məşhur incəsənət xadimlərinin həyatı, yaradıcılığı ilə bağlı olmaqla bərabər, memarlıq üslubu ilə də Bakıya yaraşıq verən binalardır. Marşruta ev-muzeyləri və qeyd olunan məkanlardan əlavə Dənizkənarı bulvar, burada vaxtilə həmin məşhurların ənənəvi görüş yeri olmuş "Mirvari" kafesi, qonaqların Bakının və Xəzərin mənzərəsini seyr edə biləcəyi Dağüstü park da daxildir.

### "Əli və Nino" romanının izləri ilə

Müsahibimiz bildirdi ki, ATB tərəfindən eyni zamanda məşhur bədii əsərlərə bağlı məkanların əhatə olunduğu marşrutlar da hazırlanır. Nümunə olaraq Qurban Səidin "Əli və Nino" romanında hadisələrin baş verdiyi məkanların daxil edildiyi turist marşrutunu qeyd etmək olar: "İlk dəfə 1937-ci ildə Vyanada alman dilində çap olunmuş "Əli və Nino" romanının müəllifi barədə hələ də müzakirələr getsə də, bu, əsərə olan marağı azaltmayıb. Müxtəlif dillərdə dünyanın 60-dan çox ölkəsində nəşr edilmiş romanda hadisələr Şuşa, Bakı, Gəncə, Tbilisi, Dağıstan və İranda cərəyan edir və iki gəncin sevgi macərası fonunda XX əsrin əvvəllərinin siyasi, sosial və mədəni mənzərəsi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranma dövrü və ağır günləri də əksini tapıb. "Sevimli romanın izləri ilə maraqlı gəzinti" adlı turizm marşrutu ilə qonaqlar "Əli və Nino"nun Bakı səhifələrinə səyahətə çıxmaq imkanı əldə edəcəklər".

Gəzinti əsərin qəhrəmanı Əlinin böyüdüyü və 1918-ci ilin martında erməni-bolşevik dəstələrinin Bakıda törətdiyi qırğınlar zamanı döyüşlərin getdiyi İçərişəhərdən başlayacaq. Əlinin Nino ilə görüş təyin etdiyi indiki Filarmoniya bağı, romanda adı "Şəhər klubu" kimi keçən Azərbaycan Dövlət Akademik Filarmoniyasının binası, İstiqlaliyyət küçəsi və bu küçədə yerləşən Bakı Şəhər İcra Hakimiyyətinin (əsərdə bu bina "Bələdiyyə binası" kimi xatırlanır) binası marşrutun növbəti dayanacaqları olacaq. İndiki 132 və 134 saylı məktəblər isə əsərdə "Müqəddəs Tamara adına qız gimnaziyası" kimi göstərilir və Əli Ninonu görmək üçün tez-tez bu məktəbə gedirdi. Əlinin özünün oxuduğu və romanın ilk cümləsində adı keçən "Rus imperator humanitar gimnaziyası"nın binasında isə hazırda Azərbaycan Dövlət İqtisad Universiteti yerləşir. Gəzintini davam etdirməklə turistlər özlərini sanki romanın içində hiss edəcəklər. İslam Xeyriyyə Cəmiyyətinin binası (İsmailiyyə binası), Qoşa qala qapıları, Haşımovların evi (Konstitusiya Məhkəməsinin binası) və romanda adı çəkilən digər məkanlar öz memarlıq imicini bu gün də saxlayan tikililərdir.

Şərifə Həsənova bildirdi ki, bu marşrutun davamı olaraq "Gəncədə "Əli və Nino" izləri" səyahət proqramı da nəzərdə tutulur. Məlumdur ki, romanda Gəncə ilə bağlı məqamlar kifayət qədərdir. Əli xan Şirvanşirin ulu babası Gəncə yaxınlığında ruslara qarşı döyüşdə qəhrəmancasına həlak olub. Əsərin sonluğu Əlinin ulu babası ilə eyni taleyi yaşadığını göstərir. Müəllif romanın son hissəsində Gəncə camaatının Cümhuriyyətin süqutundan sonra bolşeviklərə qarşı üsyanını da qələmə alıb. Əsərin qəhrəmanı Əli bu döyüşlər zamanı Gəncəçayın üzərindəki körpüdə həlak olur. Bu körpü Gəncədə Mirzə Abbas Abbaszadə küçəsində yerləşir.

Marşrutun digər maraqlı yerləri sırasına Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədəki hökumət binası, romanda Əlinin sığındığı Cümə məscidi, Gəncə Tarix-Diyarşünaslıq Muzeyi, Lüteran kilsəsi, "Gəncəçay" park-bulvar kompleksi və "Əli və Nino" abidəsi daxildir. İl ərzində turistlərin romanda hadisələrin cərəyan etdiyi Şuşa şəhərinə gəzintisi də planlaşdırılır.

ATB rəsmisi vurğuladı ki, hazırlanan marşrutlardan istifadə üçün azerbaijan.travel saytına daxil olmaq və müvafiq marşrutu taparaq xəritəni yükləmək kifayətdir. Ziyarət edilən məkanlarda isə turistlərdən müvafiq ödənişlər tələb olunacaq.

***

Müsahibim sonda qeyd etdi ki, adları çəkilən turizm marşrutları üçün prioritet bazarlar bir sıra qonşu, eləcə də MDB ölkələridir. Gələcəkdə bu arealı daha da genişləndirmək olar. Həmçinin ölkəmizin ayrı-ayrı regionlarında da tanınmış simaların adı ilə bağlı məkanlara turizm marşrutları təyin etmək mümkündür. Məsələn, rus turistlər üçün Qusarda M.Lermontovun, fransız turistlər üçün isə İkinci Dünya müharibəsində Fransada antifaşist Müqavimət hərəkatının üzvü olmuş əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun Şəkidəki ev-muzeylərini həmin siyahıya əlavə etmək olar.

**Nurəddin**

# Aşıq sənəti üzrə fundamental not vəsaitinin təqdimatı




Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) dəstəyi ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Hafiz Kərimovun hazırladığı "Azərbaycan bəstəkarlarının əsərləri (saz və fortepiano üçün köçürmə və işləmələr)" adlı not vəsaiti nəşr olunub. Martın 1-də paytaxtdakı G.Şaroyev adına 35 nömrəli onbirillik Musiqi məktəbində nəşrin təqdimatı olub.

Aşıq sənəti üzrə ilk fundamental not vəsaiti əsasən uşaq musiqi və incəsənət məktəblərində, habelə digər bədii təhsil müəssisələrində aşıq sənəti sahəsində ehtiyacların təmin olunması, repertuarın zənginləşdirilməsi, habelə festival və müsabiqələrin proqramının əhatə dairəsinin genişləndirilməsi məqsədilə hazırlanıb.

Tədbiri G.Şaroyev adına məktəbin direktoru Vəfa Həziyeva açaraq iştirakçıları salamlayıb.

MEMİM-in direktoru Səadət Xələfbəyli giriş sözündə saz-söz sənətimizin böyük tarixi olduğunu, zəngin tarixi ənənələri özündə yaşadan Azərbaycanın aşıq sənətinin 2009-cu ildə UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edildiyini bildirib.

Müəllif Hafiz Kərimov kitab haqqında məlumat verib. Qeyd edib ki, hazırda bədii təhsil müəssisələrində dövrün tələbinə uyğun olaraq musiqi duyumu və şifahi ənənə ilə yanaşı saz ifaçılığı fənninin notla tədrisi həyata keçirilir. Saz aləti ilə bağlı olan dərs vəsaitlərinin məhdudluğu yeni tədris materiallarının nəşr olunmasını zərurətə çevirib. H.Kərimov kitabda əhatə olunan mövzuları, praktik ifa və tədris metodikasını sahə üzrə alim və mütəxəssislərin, saz ixtisasını tədris edən pedaqoqların diqqətinə çatdırıb.

Tədbirdə ADMİU-nun Musiqi tarixi və nəzəriyyəsi kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə, Azərbaycan Milli Konservatoriyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Mübariz Əliyev, sənətşünaslıq üzrə fəlsəfə doktorları Samirə Əliyeva, Fəzail Miskinli, filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədov, Gədəbəy Aşıq Məktəbinin direktoru Etibar Əli-




yev, ADMİU-nun saz ixtisası üzrə müəllimi Murad Səmədzadə, Bakı şəhəri və Abşeron rayonunda fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin saz ixtisası fənnini tədris edən müəllim heyəti iştirak edib.

Çıxış edənlər respublikada saz ixtisası tədris edilən uşaq musiqi və incəsənət məktəblərinin, habelə Gədəbəy Aşıq Məktəbinin profil üzrə inkişafı məqsədilə çoxsaylı dərslik və metodiki vəsaitlərə ehtiyac duyduğunu, usta-şagird kontekstində ənənə ilə nəsildən-nəslə ötürülən aşıq sənətində təhsilin və müasir musiqinin inkişafı fonunda eyni zamanda notla tədrisin də əhəmiyyətini qeyd ediblər.

Mütəxəssislər nəşrin ərsəyə gəlməsinə dəstək göstərən Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinə təşəkkürlərini bildirib və bu istiqamətdə işlərin davam etməsinin vacibliyini vurğulayıblar.

Təqdimat zamanı ADMİU-nun III kurs tələbəsi Ayxan Məlikov, IV kurs tələbəsi Xavər Hüseynova və Xırdalan şəhər 11 illik Musiqi məktəbinin saz ixtisası üzrə müəllimi Nəsib Həsənovun ifasında not vəsaitindən nümunələr də səsləndirilib.

# Həyata kitabla addımla







Uşaqların saf və məsum təbəssümü, sonsuz və zərərsiz arzuları, dünyanın bütün buzlarını əridib, bütün pisliklərini dəf edəcək qədər böyük sevgiləri nəinki cəmiyyətin, bütünlükdə bəşəriyyətin xilası ola bilər. Bunu biz böyüklərə anlada bilsələr. Bu günlər dünyada baş verən ağır hadisələr və onların yükü altında əziyyət çəkən günahsız uşaqları düşünə-düşünə yollandığım tədbirdə buna bir daha əmin oldum.

Ümumiyyətlə, axır zamanlar, xüsusən Vətən müharibəsindən sonra, şəhid və qazilərimizin övladlarının adı ilə bağlı tədbirlər məni daha çox cəlb edir. Onların gözlərinin içinə baxmağa cəsarət etməsəm də, qısa hal-əhvaldan o yana söhbətlərə gedə bilməsəm də, üzlərindəki ani sevinci, xəfif təbəssümü görmək məni inanılmaz xoşbəxt edir. O an mənə elə gəlir ki, qəhrəman atalarının da ruhları səadətə qovuşur...

Məhz bu ovqata köklənmiş tədbirlərdən biri martın 1-də Beynəlxalq Muğam Mərkəzində baş tutdu. Mədəniyyət Nazirliyinin dəstəyi və Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə "Həyata kitabla addımla" adlı tədbir Vətən müharibəsi şəhidlərinin yadigarları ilə onları sevərək qucaqlayan həmyaşıdlarının yaddaqalan görüşü də sayıla bilər.

Qayəsində uşaqlar, onlarda kitaba sevgi və bir-birinə bağlılıq yaratmaq olan tədbirin qəhrəmanları balacalar idi. İstər səhnədə, istərsə də salonda çıxış edən, əyləşən yaş etibarilə böyük olanlar da həmin tədbirdə az da olsa qayğılarından azad olub, məsum uşaqlıqlarına qayıtmaq imkanı qazandılar.

Himnimizin səslənməsi ilə başlanan tədbirdə torpaqlarımızın azadlığı uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, ölməz qəhrəmanlara ehtiram dərin sükutu alqışlarla əvəzlədi.

Sonra BMM-in uşaqlar sayəsində gül çələngini xatırladan salonunda, səhnəsində əsl saflıq və sevginin "hakimiyyəti" başladı. 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin yetirmələri maraqlı, rəngarəng konsert proqramı ilə haqq elədikləri alqışlarla qarşılandılar.

Balacaların sevimli nağıl, hekayə, roman qəhrəmanları, məşhur animasiya və bədii filmlərdən sevdikləri personajları – Gülməşəkərlər, Cırtdan, Göyçək Fatma, Məlikməmməd, Tıq-tıq xanım, Siçan bəy, Dələ və Sincablar, Elflər, Şahzadə, Çəkməli pişik, şələquyruq Tülkü və başqa personajlar səhnəyə çıxaraq uşaqlara kitablardan danışdılar, kitabların bilik, zövq xəzinəsi olduğunu diqqətə çatdırdılar, rəqs etdilər. Səhnə kompozisiyasında uşaqlara teatr, musiqi və ümumilikdə yaradıcılığa sevgi təlqin olunurdu.

Səhnədəkilərə qoşulub yerində oynayan, əl çalan, yaxud da sevimli personajlara səslənən balacalar Vətən sevdalısı yaşıdlarının "Xarıbülbül rəqsi"ni, döyüş ruhlu "Cəngi"ini ayaq üstdə alqışladılar.

Təşkilatçılar da əziz qonaqları – Vətən müharibəsi şəhidlərinin övladları və ümumilikdə tədbirə qatılan bütün uşaqlarla görüşə əliboş gəlməmişdilər. Onlara 1400 nüsxəyə yaxın kitab hədiyyə olundu, "Ulduz" şokolad fabrikinin xüsusi olaraq hazırlanmış şirniləri paylandı.

Kitab bayramında çıxış edənlər – Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova, Müdafiə Nazirliyinin nümayəndəsi, polkovnik Elvin Əzizov və "Azərbaycan Nəşriyyatçıları" İctimai Birliyinin sədri Şəmil Sadiq sevgi ilə görülən hər bir işin belə uğurlu olduğunu dedilər.

Şəhid övladlarına üz tutan Şəhla Qəmbərova "Siz millətimizin, xalqımızın qürur, əyilməzlik simvolu olan şəhidlərimizin yadigarlarısınız. Gələcəyimizin sizin timsalınızda intellektual gücə böyük ehtiyacı var. Bunun üçün, əziz uşaqlar, siz dövrün, zamanın çağırışlarına uyğun elm öyrənməli, inkişafınıza təkan olan amillərə xüsusi diqqət yetirməlisiniz" dedi.

Elvin Əzizov isə balacalara "Kitab hər birimizin ən yaxın dostu, ən sevincli və kədərli anımızın şahidi, ən etibarlı yol yoldaşımız, bələdçimiz olmalıdır. Xüsusən xalqımızın, dövlətimizin parlaq gələcəyi sizin kimi istedadlı və bilikli övladlardan asılıdır" tövsiyəsini verdi.

Şəmil Sadiq də kitaba sevgi, uşaqlarda mütaliəyə maraq üçün bu kimi tədbirlərin daha çox olmasını arzuladı, kitabla dost olan cəmiyyətin mütləq tərəqqiyə yüksəldiyini dedi.

Kitab, sevgi və dostluq bayramına çevrilən tədbirin iştirakçıları sonda mərkəzin foyesində balaca rəssamların işlərindən ibarət rəsm sərgisi ilə tanış oldular.

**Həmidə**

# Adam kimi yaşaya bilməyənlər...





Çox amansız məsələdir, şərtdir, təsvirdir. Bir az da irəliyə getsək, təhdiddir. Məsələn, çağdaş dünya müstəbidlərinin dediyi, daha doğrusu, göstərdikləri: adam kimi (mənim dediyim kimi) yaşaya bilmirsənsə (istəmirsənsə), ölümə məhkumsan. İlk baxışdan qəbuledilməz görünsə də, günümüzün reallığında lap yerində təyindir...

Nəinki qütblər və zümrələrin, bütünlükdə dünyanın belə ağır fikirlərlə sınandığı bu günlərdə "Siçanlar və adamlar" adlı tamaşaya baxdım. Psixoloji dram janrındakı səhnə işi müstəqil "ŞahMat" teatrının premyerası idi. Amerika yazıçısı, Nobel mükafatı laureatı Con Steynbekin eyniadlı əsəri əsasında hazırlanan və birhissəli dram kimi təqdim olunan nümunəni səhnələşdirən Mirtalib Həsənov, quruluş müəllifi teatrın yaradıcısı Mirqabil Əkbərovdur. Səhnə tərtibatını rəssam Səbinə Abutalıbzadə, musiqi tərtibatını Fuad Məmmədov verib.

Tamaşada əsərin əsas ideyası saxlanılıb: həyatın yükünü həmişə balaca adamlar çəkir və bu yazılmamış qanun heç vaxt dəyişmir. Tamaşa boyu bir məkanda – yenicə tapdıqları ağır işdə çalışmaq və bir qarın belə olsa, çörək tapmaq üçün olmazın əzablara düçar olan iki dostun dramını izləyirik. Nə illah etsələr də, bir daşı belə daş üstünə qoya bilmirlər. Həyatları boyu ağırlıqlar qaldıra-qaldıra, əslində, nə boyda çətin bir ömür yaşadıqlarının fərqinə belə varmadan dözülməz fiziki və mənəvi yük altında məhv olub gedirlər.

Burada daha çox bir-birinə zidd xarakterdə olan iki obrazı – yorğun düşmüş Corc (Anar Bulud) və ondan fiziki baxımdan güclü, lakin əqli problemləri olan dostu Lennini (Anar İbrahimov) görürük. Onlar bir-birinə qardaş kimi yaxındırlar. Lenninin bir arzusu var: kiçik torpaq sahəsində rəngli və yumşaq dovşanlar saxlasın, hər gün evinin yanındakı çayda çimsin, bolluca qızardılmış ət və şirin kökələr yesin. Heç Corcun da böyük tələbatları yoxdur. Səhərdən axşamacan işləməyə, yorğun düşməyə razıdır, təki təhqir olunmasın, ora-bura sürüklənməsin, adam kimi yaşasın...

Amma dünya heç də onların istədiyi kimi səxavətli və balaca arzularını reallaşdıracaq qədər böyük deyil. Lenniyə, onun hərəkətlərinə görə getdikləri hər yerdən qovulan, az qala bütün ölkəni gəzən dostlar, nəhayət, gəlib ucqar bir yerdəki malikanədə qərar tuturlar. Buradan da qovulmağın qorxusunu yaşayan Corc durmadan Lenniyə yalvarır, necə davranmalı olduğu barədə təlimatlar verir. Lenni isə heç nəyi vecinə almadan gah yaşıl bağının, gah rəngli dovşanlarının, gah da qızardılmış qırmızı ətin xəyalını qurur. Onun ən böyük zəifliyi gözəl və zərif şeyləri çox sevməsidir. Dovşanı da bu səbəbdən arzulayan Lenni daima cibində ölü siçan gəzdirir və Corcun israrlarına rəğmən bu vərdişindən əl çəkmir.

Yeni işlərində də onları eyni sınaqlar gözləyir. Təsərrüfat sahibinin yenicə ailə qurmuş kobud oğlu – Sahibkar (Orxan Abışov) onlara gün verib işıq vermir. Xüsusən Lennini çox incidir. Malikanədə qocalan səfil içki düşkünü Slim (Cavid Cavadzadə) də onlara yaxşı davranmır. Ümumən bu yeni ikili heç kimin – nə Körlinin (Orxan Bakinski), nə Kendinin (Fərid Vəliyev), nə də Karlsonun (Fuad Məmmədov) xoşuna gəlmirlər. Hər şeydən şübhələnən və daim sahibkarın oyuncağı olaraq qalan malikanədəkilər bir-birinə yaxın iki dostun münasibətini, sədaqət və bağlılığını anlaya, həzm edə bilmirlər. Araya nifaq salmaq, Lenninin axmaq olduğunu dönə-dönə onun üzünə vurmaqla Corcun ondan imtina etməsini istəyirlər. Təkcə malikanəyə yeni gələn Qızdan (Günel İmanova) başqa. Kobud və amansız Sahibkarın yeni arvadı da Lenni kimi təkdir. Onun da dosta, həmdəmə ehtiyacı var. Buna görə də fürsət tapan kimi onun yanına gəlir, dərdləşir. Qızın ona diqqətindən xoşhal olan Lenni Qızın saçlarına toxunur, onu oxşayır. Yumşaq əşyalara, heyvanlara olan həvəsi ilə qırmızı paltarlı yumşaq saçlı Qızı da əzizləyirmiş kimi var gücü ilə sıxıb boğur. Beləcə, həm özünün, həm də Corcun bütün gözəl gələcək arzularının üstündən xətt çəkir...

Lenni ömrü boyu onu qoruyan və əzizləyən hamisi tərəfindən öldürülür. Əslində, Corcun bundan başqa çıxış yolu da yoxdur. Sahibkar başda olmaqla malikanədəki hamısı ondan bunu istəyir – günahkarı cəzalandırmağı...

Mövzu, ideya və nəticə çox ağırdır. Üstəlik günümüzün reallığı ilə səsləşməsi və rejissorun onu sadə həyat faktları ilə şaxələndirməyi tamaşaya laqeyd yanaşmağa, daha doğrusu, ona bir teatral akt kimi yanaşmağa imkan vermir. Daim gərgin, narahat, qayğılı və kədərlisən. Gedişatı, nəticəni bildiyin halda yenə də nə isə bir işıq axtarırsan. Lap bütün qorxulu nağılların sonunda göydən düşən üç almaya aldanmaq kimi. Amma bu, heç olmur. Əvəzində yarıqaranlıq məkan və onun ladında olan musiqilərin müşayiətində ruhun qapqara gerçəkliklərin təsirində vurnuxur.

Səhv etmirəmsə, eyni qənaətə bu teatrın başqa bir tamaşasında da gəlmişdim: qaradan tünd rəng yoxdursa, onun üzərinə işıq salmaq lazımdır, nəinki qapqara olduğunu isbatlamaq. İstedadlı və maraqlı teatr duyumu olan gənclərin bir araya gəlib tamaşaçı ilə "şahmat" oynadığı nümunə və ümumən teatr, səhnə, sənət adı altında istənilən yaradıcılıq aktı mütləq bir işıq zərrəsi göstərməlidir. Çünki cəmiyyət qanunları, ağır həyat şərtləri bizi nəfəs almaq, təzələnmək, yaxşı mənada aldatmaq və aldanmaq üçün sənətə – canlı yaradıcılıq yeri olan teatra aparmalıdır. Bizə işıq vəd edən teatra...

**H.Nizamiqızı**

# "Yetişdi fəsli-bahar"

## Milli İncəsənət Muzeyinin "Bədii lövhələr" layihəsi davam edir

Yurdumuza bahar gəlir. Baharın gəlişi həm də Novruzun gəlişidir. Qaranquşların qanadında, yavaş-yavaş qış yuxusundan oyanan torpağın rayihəsində, ağacların tumurcuqlarında gəlir xalqımızın Novruzu...

Baharın gəlişini duymaq, estetik zövq almaq üçün Azərbaycan Milli İncəsənət Muzeyi mart ayı boyunca 3-15 yaş arası uşaqları əyləncəli və maarifləndirici ustad dərslərini əhatə edən tədbirlərə dəvət edir. Muzeyin "Bədii lövhələr" layihəsində təqdim olunan "Yetişdi fəsli-bahar" adlı proqram onlara unudulmaz duyğular yaşadacaq.

Novruz bayramının mənşəyi və adətlərindən bəhs edən mühazirə ilə başlayan proqram ustad dərsləri ilə davam edəcək. Balacalar "Bahar xonçası" adlı kompozisiyanı boyayacaq, eləcə də muzeyin binalarını ziyarət edərək zəngin bədii sənət irsimizin sehrinə qərq olacaqlar.

# "Solğun sevgilər" inklüziv səhnədə



DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində növbəti tamaşa nümayişi olub. Fevralın 28-də sənətsevərlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi, A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı və "Oyun" müstəqil inklüziv teatrının birgə layihəsi olan "Solğun sevgilər" tamaşasını izləyiblər.

Tamaşada sağlamlıq imkanları məhdud həvəskar aktyorlarla yanaşı peşəkar aktyorlar da yer alıblar.

Cəfər Cabbarlının 120 illik yubileyi münasibətilə ədibin "Solğun çiçəklər" dramı əsasında 2019-cu ildə hazırlanan səhnə əsəri pandemiyadan sonra quruluş həlli və aktyor heyətində müəyyən dəyişikliklərlə təqdim olunub.

Tamaşanın quruluş müəllifi Səidə Haqverdiyeva, rəssamı İqbal Əliyev, musiqi tərtibatçısı Vüqar Camalzadə, xoreoqrafı Elnur İsmayılovdur. Rolları Məleykə Cəfərova (Sara), Türkay Cəfərli (Bəhram), Ülviyyə Əliyeva (Gülnisə), Zümrüd Qasımova (Vicdan), Səbinə Məmmədova (Pəri), Xəqani Əliyev (Azad), Qəndaf Əkbərli (Dəniz), Rəsul (Rəsul Zəkiyev), Kamilə Xəlilova (Tamam), Babək İsmayılov (Əbdül), Rəsul Məmmədli (Vəkil), Rüxsarə Zeynalova (Bərbər) və Ceyhun Mahmudov (Ceyhun) ifa ediblər.

# Sənət sevdalısı

Kino istehsalatdan başlayaraq filmlərin tamaşaçılara təqdim olunmasına qədər qarşılıqlı münasibətlər əsasında yaranır. Müxtəlif həyat hadisələrini inandırıcı, təbii təqdim etməklə yanaşı, yaradıcı heyətin istək və düşüncələrini məzmunlu, məntiqli mətnlə, mövzuya, təsvirə uyğun təhlillə tamaşaçıya çatdırmaq lazımdır. Kino mətninin redaktə işinin mükəmməlliyi təsvirin baxımlılığını artıran şərtlərdəndir. Belə məsuliyyətli işin öhdəsindən gəlmək üçünsə dərin biliyə, zəngin təfəkkürə, sənətə dərindən bağlı qəlbə sahib olmalısan.



Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində uzun illər pedaqoji fəaliyyət göstərən, "Azərbaycanfilm" Kinostudiyasında tərcüməçi-redaktor, ssenarist kimi çalışan Svetlana İsmayılova da ömrünün sonunadək Azərbaycan kinosunun keşiyində durdu, fəaliyyəti boyunca məslək borcunu sevgi və məsuliyyətlə yerinə yetirdi. Yüksək mənəvi dəyərləri, insani xüsusiyyətləri şəxsiyyətində cəmləşdirən, dünyaya gəlişi və gedişi eyni aya (26.2.1939 – 25.2.2022) bir gün fərqi ilə həkk olunan sənət sevdalısının ömür kitabının səhifələrini məhz bu baxımdan vərəqləməyi, yaxınlarının söhbətlərində fərdi cəhətlərinə, sənət dünyasına bir az da yaxın olmağı özümüzə borc bilirik.

Danılmaz həqiqətdir ki, məslək borcunu, insanlıq missiyasını vicdanla yerinə yetirəndə yalnız doğmalarının deyil, ətrafındakıların da sevimlisinə çevrilirsən. Svetlana İsmayılovanın təfəkküründən, dünyaya olan fərqli baxışından süzülən xeyirxah cəhətləri onu sevilərək xatırladan səbəblərdəndir. Tanınmış jurnalist, pedaqoqun da adı dostları, tələbələri, həmkarları tərəfindən daima hörmətlə çəkilib.

### Peşəsini dərindən bilən bir şəxsiyyət idi

Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, kinorejissor **Cəmil Quliyev**: "Svetlana İsmayılovanı 1983-cü ildən tanıyırdım. O zaman "Azərbaycanfilm" Kinostudiyasında ssenari redaksiya heyətinin üzvü və bir çox bədii, sənədli, animasiya filmlərinin aparıcı redaktoru idi. Eyni zamanda kinostudiyanın dublyaj şöbəsində rus dilindən Azərbaycan dilinə dublyaj olunan filmlərin redaktoru və tərcüməçisi kimi işləyirdi. Qayğıkeş, təvazökar insan olduğundan hamı onun otağına toplaşırdı. Adama elə gəlirdi ki, onun otağı intellektual, mədəni mərkəzdir. Görkəmli kinorejissorlardan Tofiq Tağızadə, Rasim Ocaqov, Şamil Mahmudbəyov, Ceyhun Mirzəyev, Ziyafət Abbasov, Cəmil Fərəcov, Yalçın Əfəndiyev, dublyaj şöbəsinin aparıcı rejissorlarından Arif Həbibi, Ağası Zeynalov, görkəmli aktyorlardan Həsənağa Turabov, Səməndər Rzayev və digərləri həmişə onun otağına gəlir, fikir mübadiləsi aparır, yaradıcılıq söhbətləri edirdilər. Otağında həmişə isti çay olurdu, qonaq gələn insanları gülərüzlə qarşılayırdı. Bu kimi mehriban xüsusiyyətləri ilə insanları özünə yaxınlaşdırırdı.

Mütaliəni çox sevirdi. Yeni nəşr olunmuş kitabları daima əldə edir, oxuyurdu. Həmin illərdə Azərbaycanda nəşr olunan ədəbi jurnalların redaksiyasının fəal üzvü idi. Maraqlı məqalələri ilə tez-tez həmin jurnallarda çıxış edirdi.

Onu da qeyd edim ki, Svetlana xanımla iki sənədli film üzərində işləmişəm. Onlardan birincisi akademik Püstəxanım Əzizbəyovaya həsr olunmuş film idi, ikinci film isə Ermənistan ərazisində azərbaycanlıların yaşadığı Nüvədi kəndindən bəhs edirdi. Svetlana xanım sənədli kinonu dərindən bilirdi və sənədli materiallarla çox dəqiqliklə işləyirdi. Filmin görüntü sırası hazır olduqdan sonra məntiqli və təsirli yanaşma ilə həmin görüntülərə aid mətn hazırlayırdı.

Svetlana İsmayılova Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində bir neçə fənni tədris edirdi. Tələbələri tərəfindən sevilən, hörmət olunan pedaqoq idi. 2002-ci ildən Almaniyada yaşamasınma baxmayaraq, tələbələri onunla mütəmadi olaraq əlaqə saxlayırdılar. Dünyasını dəyişdiyini eşidəndə onlar sosial şəbəkələrdə dərin təəssüf və kədərlərini ifadə etdilər. Bu isə Svetlana xanımın nə qədər böyük sevgi ilə əhatə olunmasının bariz nümunəsidir.

Onunla sonuncu dəfə fevral ayının 1-də danışdım. Bir müddət sonra xəstəxanada olduğunu eşitdim. Həyatdan getməsi mənim üçün ağır bir itki oldu. Çünki bir il əvvəl anamı itirdim. Çətin vaxtlarımda belə Svetlana xanım daim mənimlə əlaqə saxlayırdı. Baxmayaraq ki, Almaniyada idi, hər gün mənə zəng edirdi, qayğıma qalırdı. Qayğıkeş, təvazökar, dostluğu axıra kimi davam etdirməyi bacaran insan, ziyalı, peşəsini dərindən bilən bir şəxsiyyət idi. Allah ona rəhmət eləsin".

### "Xoş aurası bizə də keçirdi"

Xalq artisti **Həmidə Ömərova**: "İlk dəfə Svetlana xanımla kinostudiyada tanış olduq. Səmimi, mehriban danışığı ilə insanı özünə cəlb edirdi. Problemi olsa belə heç kimə bildirmirdi. Kimi görürdüsə xoş üzlə, mehribanlıqla salamlaşır, əhvalını soruşurdu. Mən onu bir dəfə də olsun əsəbi görmədim. Xoş aurası bizə də keçirdi. Sonralar Mədəniyyət və İncəsənət Universitetində pedaqoq kimi birlikdə çalışdıq. Həmişə məni görən kimi "atam necədi?" deyirdi. Təəccüblə soruşurdum ki, kimi deyirsiniz? Deyirdi, oğlunuzu deyirəm də, axı o, atamın adını daşıyır.

Onun doğum gününü müəllim heyəti ilə birlikdə həmişə fevral ayının 26-da qeyd edirdik. 1992-ci ilin 26 fevral tarixində ermənilərin Xocalıda törətdiyi qırğından sonra bir daha doğum gününü həmin gün qeyd etmədi.

Axırıncı dəfə onunla, ailəsi və qızları ilə 8 il bundan əvvəl Almaniyaya gedəndə görüşdüm. Qızları Elnarə və Samirə xanım Almaniyada yaşadığı üçün həyat yoldaşı Telmanla ora köçmüşdü. O, həmişə ailəsindən, qızlarından çox razılıq edirdi.

Uzaqda yaşamağını bizə hiss etdirmirdi. Sosial şəbəkə vasitəsilə tez-tez əlaqə saxlayırdı. Elə gün olmurdu ki, məndən hal-əhval tutmasın, gül şəkilləri göndərməsin. Nəcib xasiyyətli, incəqəlbli xanım idi. Bir müddət ondan mesaj almadım. Nigaran qaldım və mesaj yazdım, amma cavab gəlmədi. Bu yaxınlarda eşitdim ki, dünyasını dəyişib. Biz çox işıqlı, hamıya mehriban olan gözəl bir insanı itirdik. Çox təəssüf edirəm...".

### Tələbələrini həm şəxsiyyət, həm də peşəkar kimi yetişdirirdi

**Mahmənzər Məmmədrəsulqızı**, rejissor: "Mədəniyyət və İncəsənət Universitetində Kino rejissorluğu fakültəsində oxuyanda kurs rəhbərimiz, rejissor Yalçın Əfəndiyev bir gün bizə dedi ki, sizə ssenari yaradıcılığı fənni tədris olunacaq. Fənni Svetlana İsmayılova tədris edəcək. Biz auditoriyaya gedəndə elə düşünürdük ki, adəti üzrə müəllimimiz bizdən sonra gələcək. Ancaq bu dəfə gözlədiyimizin əksi oldu.



Qapını açanda eynəkli, gözəl bir xanımın əlindəki kitabı diqqətlə oxuduğunu gördük. Mən indi də həmin anları xatırlayanda bir daha yəqin edirəm ki, ilk təəssürat necə məna verirsə, sonda yenə həmin hisslərin üzərində dayanırsan. İlk gündə Svetlana xanımın simasında əsl xanım-xatın qadın, qayğıkeş ana, ziyalı pedaqoq və bir sıra müsbət cəhətlərin vəhdətini gördüm. Onun zahiri görünüşü və daxili arasında bağlılıq, harmoniya vardı. Zahirən gözəl olmaqla yanaşı, xasiyyəti də nəcib idi. Bu onun pedaqoji fəaliyyətində də özünü göstərirdi. Bizə yüksək mənəvi keyfiyyətlərindən yoğurulan nurundan, işığından pay bölürdü. Pedaqoji fəaliyyəti ilə yanaşı, insani keyfiyyətləri fonunda müdrikcəsinə həyat dərsini də tədris edirdi. Tələbələri arasında elə mühit yaradırdı ki, sanki onu illərlə tanıyırdıq. Həyati mövzularla bağlı maraqlı söhbətlər edirdi. Müəllim-tələbə münasibəti etiketi çərçivəsində dərin, fəlsəfi fikirlər aşılayırdı. Onunla söhbət edərkən, mülahizələrini dinləyərkən özümüzü gərəkli hiss edə bilirdik. Pedaqoji fəaliyyətinin böyüklüyü onda idi ki, o, tələbəsinin səviyyəsini bir şəxsiyyət kimi qaldıra bilirdi. Əvvəlcə şəxsiyyət, sonra peşəkar kimi yetişdirirdi.

Bir dəfə ondan niyə adınız Svetlanadır deyə soruşdum. "Həmin vaxtlar belə adlar dəbdə idi. Atam ona görə adımı Svetlana qoyub, işıq mənasını verir" dedi. Almaniyaya gedəndə mənə gümüş qaşıqlar hədiyyə etmişdi. Dedi ki, bunları işlədəndə məni xatırlayarsan. Əşyaya insan təxəyyülünün məhsulu, insanın yaratdığı bir gözəllik kimi baxırdı. Qaşıqları əlimə alanda gözəl və incə olduğunu dedim. O isə cavabında "qızım, sən o gözəlliyi dərk edirsən deyə, onları sənə hədiyyə edirəm" dedi. Mən fəxr edirəm ki, onun tələbəsi olmuşam".

### Hara getsəniz özünüzlə ürəyinizi aparın

**Vüqar Həmidov**, rejissor: "Svetlana xanım kinonu bizə tam dərinliyi ilə açan, kinonu mükəmməl bilən pedaqoq idi. Həqiqəti üzə deyən xanım idi, amma heç kim ondan incimirdi. Tələbə olarkən tez-tez yığışıb onlara gedirdik. Almaniyadan hər dəfə gələndə də evlərinə gedib görüşürdük. Yadımdadır, ali məktəbi yenicə bitirdiyimiz vaxtlarda onlara getmək istədik. Fikirləşdik ki, onun üçün şokolad qutusu, ya da gül dəstəsi alaq. Amma əlimizdə olan vəsaitə heç nə ala bilmədik deyə görüşü təxirə saldıq. Bir neçə gündən sonra tələbə yoldaşlarımızla yenə də görüşüb onlara getdik. Dəqiq bilirəm ki, onlara gedə bilməməyimizin səbəbini ona heç kim deməmişdi. Amma o, bunu necə hiss etmişdi, mən hələ də buna təəccüb edirəm. Söhbət əsnasında maraqlı bir ifadə işlətdi ki, hara getsəniz özünüzlə ürəyinizi aparın. Biz anladıq ki, bizim üçün vacib olan görüşü adi bir səbəbdən gecikdirmişik. Svetlana xanım bir cümləsi ilə belə yenə bizə həyat dərsi verdi. Onun bu fikri mənim həyata baxışımı dəyişdi. Bax beləcə, o, bizi həmişə həyata hazırlayırdı...".

**Şəhla Əmirli**
**kinoşünas**

# Gənc nəslə nümunə ömür

44 gün davam edən və şanlı Qələbəmizlə başa çatan Vətən müharibəsinin qəhrəman şəhidlərindən biri də Lənkəran elində boya-başa çatan Valeh Asim oğlu Əkbərzadədir.




Lənkəran Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyində olan Q.Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzinin Boladi-1 kənd folklor klubunda Valeh Əkbərzadənin doğum günü münasibətilə "Şəhidlər ölməz, Vətən bölünməz!" adlı xatirə gecəsi keçirildi.

Folklor klubunun mədəni təşkilatçısı Samirə Ağayeva çıxış edərək qəhrəmanın həyat və döyüş yolu haqqında ətraflı məlumat verdi.

Boladi kənd bələdiyyəsinin sədri Salman Dadaşov, şəhidin atası Asim Əkbərov, anası Xədicə Əkbərova, şəhid Aqşin İbadovun atası Nazim İbadov, eləcə də mədəniyyət işçilərinin çıxışları dinlənildi, sevgi və nisgil dolu xatirələr dilə gətirildi. Bildirildi ki, Valeh qısa, ancaq yeni nəsillərə nümunə ola biləcək bir qəhrəman ömrü yaşayıb.

Tədbirin bədii hissəsində kənd folklor klubunda fəaliyyət göstərən "Natiq" bədii qiraət dərnəyinin üzvləri doğma Vətənə övlad sevgisini, qəhrəmanlığı vəsf edən şeirlər söylədilər.

**Zəfər Orucoğlu**

# Narkomaniya və tütünə qarşı mübarizə

## Tələbələr arasında maarifləndirmə təlimi

Azərbaycan Turizm və Menecment Universitetində Gənc Vətənpərvərlər İctimai Birliyi tərəfindən "Gənclər arasında narkomaniya və tütünə qarşı mübarizə ilə bağlı maarifləndirmə" mövzusunda təlim keçirilib.

Birliyin sədri Muğan Əliyev layihənin məqsədi, narkomaniya və pis vərdişlərin fəsadları, sağlam həyat tərzi, bu sahədə informasiya qıtlığının aradan qaldırılması və digər məsələlərdən söz açıb.

Ekspert və təlimçi Məhsəti Hüseynova sağlam həyat tərzi, sağlam qidalanma, siqaret və alkoqolizm kimi pis vərdişlərin yaratdığı fizioloji və psixoloji fəsadlardan bəhs edib, tələbələrin mövzu ilə bağlı suallarını cavablandırıb.

Sonda təlimə qatılan tələbələrə sertifikat və maarifləndirici bukletlər təqdim edilib.

# Qarabağın alban-xristian irsini araşdıran alim

Azərbaycanın Qarabağ bölgəsindəki alban-xristian tarixi irsinin öyrənilməsində tanınmış arxeoloq alim, tarix elmləri doktoru, professor Rəşid Göyüşovun xüsusi xidmətləri var. Onun fundamental araşdırmalarının nəticəsi olan monoqrafiya və kitabları bədnam ermənilərin əzəli yurd yerlərimizdə öz "tarixi iz"lərini axtarmaq cəhdlərinə tutarlı cavab kimi qəbul edilir.



Rəşid Bahadur oğlu Göyüşov 5 dekabr 1930-cu ildə Ağdam rayonunun Boyəhmədli kəndində anadan olub. 1949-cu ildə orta məktəbi başa vurduqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutuna qəbul olunur. 1953-cü ildə təhsilini bitirib təyinatla bir müddət Salyan, Ağdam və Ağcabədi məktəblərində müəllim, tədris hissə müdiri, direktor vəzifələrində çalışır.

Ancaq arxeologiya elminə olan marağı onu 1959-cu ildə Azərbaycan EA-nın Tarix İnstitutuna gətirir. Arxeologiya ixtisası üzrə institutun aspiranturasına qəbul olunur. "Qəbələ şəhərinin dulus məmulatı (I-X əsrlər)" mövzusunda namizədlik (fəlsəfə doktoru) dissertasiyasını müdafiə edir.

Rəşid Göyüşov Qarabağda arxeoloji tədqiqatlarını davam etdirir, Qafqaz Albaniyasının xristianlıq tarixi mövzusunda araşdırma aparır. İlk olaraq alban rahibinin dəfn olunduğu və Orta əsr alban memarlığı abidələrindən olan Ağoğlan məbədinin yerləşdiyi Amaras şəhər yerində (Laçın rayonu), alban katolikosluğunun iqamətgahı olmuş Xəznədağ (Gəncəsər-Qanzasar) monastırı (Kəlbəcər rayonu) ilə bağlı araşdırmalar aparır, bu mövzuda məqalələr yazır.

Alban-xristian irsinə sahib olmaq istəyən ermənilər onun bu tədqiqatlarına hər vəchlə qarşı çıxırlar. Amma bütün bunlara baxmayaraq, Rəşid Göyüşov araşdırmalarını davam etdirir. Arxeoloji qazıntı materialları və yazılı mənbələr əsasında 1975-ci ildə "Amaras-Ağoğlan" adlı monoqrafiya nəşr etdirir. 1986-cı ildə isə alimin "Qanzasar alban abidəsidir" (rus dilində) adlı kitabçası işıq üzü görür.

Dərin elmi əsərləri ilə diqqəti çəkən alim 1976-cı ildə SSRİ EA Dağıstan filialının Q.Dadasi adına Tarix, Dil və Ədəbiyyat İnstitutu tərəfindən Cənubi Dağıstan arxeoloji ekspedisiyasına dəvət edilir. O, iki ay Dərbənd, Məhərrəmkənd, Qasımkənd və Axtı rayonları ərazilərindəki xristian abidələri ilə tanış olur. Arxeoloq alim "Qafqaz Albaniyasında xristianlıq" mövzusunda doktorluq işini erməni "tarixçilərin" cəfəng müdaxilələrinə baxmayaraq, 1979-cu ildə Gürcüstan EA-nın Tarix İnstitutu nəzdindəki ixtisaslaşdırılmış Elmi şurada müvəffəqiyyətlə müdafiə edir. Tədqiqatçının bu elmi araşdırması 1985-ci ildə rus dilində (Azərbaycan və ingilis dillərində xülasə ilə) nəşr olunur.

Araşdırmalarda qeyd olunur ki, Rəşid Göyüşovun təşəbbüsü ilə 1980-ci ildə Tarix İnstitutunda Yeni tikinti sahələrinin arxeoloji tədqiqi üzrə şöbə yaradılır. O, şöbəyə müdir təyin olunur. Alim bu istiqamətdə də diqqətəlayiq işlər həyata keçirir. Naxçıvanda Araz su qovşağı tikintisi sahəsinin, Xudafərin və Qız qalası (Cəbrayıl rayonu) su qovşaqlarının, Yenikənd və Şamxor SES-nin, Mozdok-Qazıməmməd qaz kəməri çəkilişi sahəsi və digər böyük tikinti sahələrinin arxeoloji abidələri məhz onun rəhbərliyi ilə öyrənilir.

Rəşid Göyüşov Azərbaycanda arxeologiya elminin yeni nəsillərə öyrədilməsi üçün tədris ədəbiyyatlarının hazırlanmasını da diqqətdə saxlayır. 1986-cı ildə nəşr olunan "Azərbaycan arxeologiyası" adlı dərs vəsaiti elmi ictimaiyyət tərəfindən maraqla qarşılanır. O, respublikamızda və keçmiş ittifaqın bir sıra şəhərlərində elmi sessiya və konfranslara qatılıb, həmçinin dəvət olunduğu Kemerovo, Moskva, Tbilisi, Daşkənd, Təbriz şəhərlərinin ali məktəblərində mühazirələr oxuyub. Müxtəlif ali məktəblərlə qurduğu əlaqə onda "SSRİ arxeologiyası" dərsliyində Azərbaycanın da lazımi dərəcədə əks olunması fikrini doğurur. Bu işi yerinə yetirmək üçün akademik A.Martınovla əməkdaşlıq edir. 1989-cu ildə onların şərikli yazdıqları "SSRİ arxeologiyası" dərsliyi işıq üzü görür. O, kitabda türkdilli xalqların arxeologiyasına daha geniş yer verilməsinə səy göstərir və buna nail olur.

Rəşid Göyüşov 90-cı illərin əvvəllərində işğal olunan ərazilərimizdə erməni alimləri tərəfindən həyata keçirilən tarixi saxtalaşdırmalara cavab kimi "Qarabağın keçmişinə səyahət" adlı elmi-kütləvi kitabını, bu mövzuda onlarla məqaləsini dərc etdirir.

Görkəmli arxeoloq alim 19 yanvar 1999-cu ildə vəfat edib.

**Savalan Fərəcov**

# "Çağdaş Azərbaycan nəsrində mifologizm"

AMEA-nın Folklor İnstitutu Folklor və yazılı ədəbiyyat şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülnar Osmanovanın "Çağdaş Azərbaycan nəsrində mifologizm" monoqrafiyası nəşr olunub.




AMEA-dan bildirilib ki, kitabın elmi redaktoru mərhum alim Kamran Əliyev, rəyçiləri isə filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev və filologiya elmləri doktoru Əfzələddin Əsgərdir.

Monoqrafiyada çağdaş Azərbaycan bədii nəsrində rast gəlinən mifologizmlər Azərbaycan, eləcə də dünya folklor nümunələri ilə müqayisəli şəkildə tədqiqata cəlb olunub, mifoloji obraz, motiv və süjetlərə müraciətin özünəməxsusluğu və bu zaman yazıçıların həyata keçirdiyi yaradıcılıq maneraları təhlil edilib.

Novruza doğru

# Yel baba – həyatın, canlılığın təməli...

Novruzun ilaxır çərşənbələrindən üçüncüsü hesab edilən Yel çərşənbəsi dörd yaradılış ünsüründən biri olan havanın həyatverici gücü ilə bağlıdır. Ümumiyyətlə, hava həyatın, canlılığın bir nömrəli təməlidir. Bəzən bir şeyin zəruriliyini "hava, su kimi lazımdır" deyə vurğulayırıq. Bu, sözsüz ki, onların əhəmiyyətlilik dərəcəsinin göstəricisidir.



Bu il martın 8-nə təsadüf edən Yel çərşənbəsi xalq arasında "Külək oyadan çərşənbə", "Yelli çərşənbə", "Küləkli çərşənbə" və s. adlarla tanınır. Mərhum folklorşünas alim, professor Azad Nəbiyev Yel çərşənbəsi haqqında yazırdı: "Əski etiqadlara görə, bu çərşənbədə oyanan yel, külək ərzi gəzir, oyanmış suyu, odu hərəkətə gətirir. Yel çərşənbəsində əsən isti və ya soyuq küləklər yazın gəlişindən xəbər verir. Gün ərzində külək bir neçə dəfə dəyişir. Bu dəyişmələr yelin özünün təmizlənməsi kimi qəbul edilir".

Qışın çətinliklərindən bezən, azuqənin azaldığını görən insanlar yazın gəlməsini həm də küləkdən, yeldən istəyərdilər. Yazın gəlişini tezləşdirmək üçün Yel babanı nəğmə ilə çağırardılar:

*A Yel baba, Yel baba,*
*Tez gəl, baba, gəl, baba.*
*Sovur bizim xırmanı,*
*Atına ver samanı.*
*Dən yığılıb dağ olsun,*
*Yel babamız sağ olsun.*
*A Yel baba, Yel baba,*
*Qurban sənə, gəl baba...*

Yel baba, eyni zamanda klassik ədəbiyyatda Səba adı ilə özünü göstərir. O, aşiqlərin arzularını bir-birinə çatdıran vasitə kimi çıxış edir. Məsələn, Şah İsmayıl Xətainin "Dəhnamə" poema-məsnəvisində Səba yeli aşiq-məşuq arasında məktub mübadiləsini həyata keçirir. Yelin çatdırma, qovuşdurma missiyasına bir sıra şairlərin yaradıcılığında da təsadüf edirik. Əbülqasim Nəbatinin məşhur "Gəlsin, gəlməsin" qoşmasında yarın intizarında olan aşiq bütün istək və yalvarışlarının ünvana çatması üçün Səba yelinə üz tutur.

Bəzi folklor nümunələrində həftənin ayrıca Yel gününün (bazar ertəsi) olduğu da qeyd edilir. Bildirilir ki, həmin gün yel pis nəfəsləri, şəri el-obadan təmizləyər, heyvanata da təmiz nəfəs verər. Göründüyü kimi, bu inancda yelin (havanın) təbiəti oyandırmasından daha çox hifz etmək missiyası önə çəkilir. Maraqlıdır ki, xalq dilində "Vədə yeli" ifadəsi də var və onun Novruz ərəfəsində əsdiyi qeyd olunur. İnanca görə, insanlar məhz Vədə yeli vasitəsilə baharın müjdəsini alırlar. Bu yel qışın sərtliyini "qovub" aparır, əvəzində mülayim bahar mehini gətirir. Nəticədə təbiət qış yuxusundan oyanır...

Bəli, artıq təbiət cana gəlir. Tumurcuqlar gözə dəyir. Bəzi ağaclarsa hətta tələsib çiçək açıb. Quşlar da bahar nəğməsini zümzümə etməyə başlayıb. Səməni üçün qablara yığılan taxıl isə "diş ağardır". Yəni bütün əlamətlər Novruzu soraq verir. Amma qarşıda Torpaq çərşənbəmiz var. Martın 15-də onu da qarşılayıb Novruz süfrəsinə, bayram tonqalına hazırlaşaq...

Yel çərşənbəniz mübarək!

**Fariz Yunisli**



# Rənglərdə yaşayan "Mistik ruhun ömrü"

Azərbaycan Rəngkarlığı Muzeyində Xalq rəssamı Mirnadir Zeynalovun (1942-2021) YARAT Müasir İncəsənət Məkanının 10 illiyi çərçivəsində açılan "Mistik ruhun ömrü" adlı retrospektiv sərgisi davam edir. Sərgi həm də bir il öncə əbədiyyətə qovuşan rəssamın 80 illiyinə həsr edilib.

Bu günlərdə sərgini ziyarət etmək imkanımız oldu. Ötən ilin noyabrında açılan sərgi Abşeron təsviri sənət məktəbinin yetirməsi olan Mirnadir Zeynalovun daxili dünyasının bədii aynası kimi tamaşaçıların da ruhuna və şüuruna işıq tutur. Rəssamın müxtəlif mövzulu əsərləri həm düşündürür, həm də bilgi verir. Təqdim olunan əsərlər sırasında fırça ustasının xarici ölkələrə səfərləri zamanı xalqların qədim mədəniyyətlərinə biganə qalmadığını da görürük. Hindistan, Misir, Yaponiya kimi ölkələrin incəsənəti, təbiəti, tarixi və fəlsəfəsi haqqında dərin bilgilərlə rəssam öz fərdi dəst-xəttini zənginləşdirməyə nail olub.

Əlvan rənglərlə, mücərrəd formalarla, canlı ritm, emosional və ekspressiv rəmzlərlə zəngin olan bu əsərlərdə Mirnadir Zeynalovun özünəməxsus tərzi diqqəti cəlb edir.

Fəal bədii yaradıcılığa 1970-ci illərdən başlayan rəssam Azərbaycan boyakarlığında məxsusi yerə sahibdir. Onun dəst-xətti həmişə tanınır, emosional, ekspressiv tabloları öz bədii keyfiyyətləri, ideya orijinallığı, məharətli icra texnikası, yenilikləri və daimi axtarışları ilə seçilir. Sərgidə tez-tez qarşımıza çıxan kollaj və instalyasiya elementləri rəssamın yaradıcılığında rəngkarlıq kompozisiyalarının ayrılmaz hissəsi olduğundan xəbər verir. Mücərrəd formalara, milli simvolikaya üz tutan, öz daxili dünyasını abstrakt üslubda daha dolğun ifadə edən fırça ustasının yaradıcılığında realist üslubda işlənmiş portretlərə, lirik mənzərələrə, eyni zamanda yalnız müxtəlif rəng çalarlarının məharətlə istifadə olunduğu abstrakt həllərə qədər fərqli janr və üslublara rast gəlirik.

YARAT Müasir İncəsənət Məkanının böyük sevgi ilə hazırladığı sərgidə müəllifin Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Mirnadir Zeynalovun özünün qalereyası, həmçinin Səyavuş Əlizadə və İlal Əhmədovun şəxsi kolleksiyalarından 60-dan artıq əsəri nümayiş olunur. Sərginin kuratoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikovadır.




Kurator qeyd edir ki, sərginin əsas ideyası tamaşaçını Mirnadir Zeynalovun əsərlərinin yaratdığı ab-havaya qərq etmək və seyrçiyə fiqurativlik və abstraksiya arasında tarazlıq yaradan rəssamın yaradıcılıq həyatının ritmini hiss etdirməkdir. Bununla da rəssamla seyrçi arasında "ünsiyyətə" nail olaraq sənətkarın mistik ruhunun ölməzliyini vurğulamaqdır.

Sərgi məkanı rəssamın yaradıcılığının müxtəlif tərəflərini iri planda əks etdirərək bir neçə tematik zala bölünür. Abstrakt rəngkarlıq zalı rəssamın rəng ustalığını bütün incəlikləri ilə əks etdirir. Bu ekspozisiyanı Kollajlar zalı məntiqi şəkildə davam etdirir. Məlumdur ki, rəssam klassik kətan əsərlərini müxtəlif materiallarla zənginləşdirməyi və bütün bunları nəhəng, monumental formatda birləşdirməyi sevirdi. Fiqurativ rəngkarlıq zalı öz mövzusuna görə bir qədər məhrəm və ailəvi xarakter daşıyır. Burada Mirnadir Zeynalova yaxın olan insanların onun tərəfindən müxtəlif illərdə çəkilmiş portretləri ilə yanaşı, rəssamın avtoportretləri də nümayiş etdirilir. Mənzərələr zalını isə rəssamın kiçik vətəni, yer üzündə onun təkcə təsviri sənət deyil, həm də poeziya yaradıcılığını qidalandıran məkanın – Abşeronun himni adlandırmaq olar. Burada, bir sözlə, Abşeron ritmlərini hiss edirik.

"Ömür yolu" adlanan zal isə çeşidli rənglərə boyanaraq rəssamın qəlbinə sahib çıxan mistik ruhu əks etdirir. Nümayiş olunan əsərlərdə rəng və duyğular, həyat və düşüncələr, müxtəlif bucaqlı baxışların əksini görə bilirik. Qrafika zalında tamaşaçı yenə dərin düşüncəyə qərq olur. Çünki bu zalda tamaşaçılar unikal əsərlərlə qarşı-qarşıya qalırlar. Muzeyin sərgi haqqında təqdim etdiyi məlumatda deyilir ki, bu zalda nümayiş olunan monoxrom, minimalist əsərlər rəssamın yaşadığı dövrdə çoxsaylı sərgilərində, demək olar ki, nümayiş etdirilməyib. Buna baxmayaraq, rəssam bu əsərlərdə virtuozcasına bir-iki cizgi ilə xüsusi bir əhval-ruhiyyə yarada bilib.

Sərgi zallarında divarlara kiçik həcmli şeirlər də həkk olunub. Bu şeirlər Mirnadir Zeynalovun əsərlərinin ideyalarını tamamlamaq, daha yaxşı qavranılmasına kömək etmək məqsədi daşıyır.

Ekspozisiyada diqqətimi bir köhnə telefon cəlb edir. Sakitcə, susan bir telefon. İlk əvvəl rənglərin fonunda telefon səs-səda elementi kimi görünsə də, muzeyin ideya və yanaşmalarının fərqliliyinə varıb dəstəyi qaldırıram. Və budur, rəssam haqqında materialları onun öz şeirlərini oxuduğu səs yazıları sərgi zalındakı vintaj telefonun dəstəyini qaldırmaqla dinləmək mümkündür.

Sərginin sonuncu zalındayıq. Sərgini Mirnadir Zeynalovun şəxsi arxivindən seçilmiş fotoşəkillər tamamlayır. Bununla yanaşı, sərgidə sənətkarın musiqi alətlərindən ibarət şəxsi kolleksiyası da nümayiş olunur.

Onu da qeyd edək ki, sərgidə rəssamın vəfatından bir neçə ay əvvəl onun haqqında ərsəyə gələn film də təqdim olunur. "Sənətkarın həyatında bir gün" formatında qurulan film-monoloq Şirin Məlikovanın təşəbbüsü və "Bakı Abadlıq Xidməti" ASC-nin dəstəyi ilə rejissor Mübariz Nağıyev tərəfindən lentə alınıb.

"Mistik ruhun ömrü" sərgisi aprelin 3-dək ziyarətçilər üçün açıq olacaq.

Mirnadir Zeynalov 12 noyabr 1942-ci ildə Bakının Buzovna kəndində dünyaya gəlib. Ə.Əzimzadə adına Rəssamlıq Məktəbində və Moskva Poliqrafiya İnstitutunun Qrafika fakültəsində təhsil alıb. Əsərlərində Abşeron təbiəti, mənzərələri önəmli yer tutur. Sənətkar 1987-ci ildə Hindistanda yaradıcılıq ezamiyyətində olarkən "Çay kənarı", "Hind məbədi", "Hind həyəti" kimi peyzajları, həmçinin "Benqal qızı", "Vasantanın portreti", "Müqəddəs öküz ilə qız" kimi bir sıra qadın portretlərini yaradıb.

Rəssamın dəfələrlə fərdi sərgiləri keçirilib. Əsərləri Moskva, Kiyev, Hyuston, Los-Anceles və başqa şəhərlərdə sərgilənib. 10 mart 2021-ci ildə vəfat edib.

**L.Azəri**

# "Azcinemaonline.com" internet kinoteatrı yenilənmiş versiyada

## Xaricdəki soydaşlarımız da milli kino yeniliklərindən xəbərdar olacaqlar

"Narimanfilm" studiyasının "Azcinemaonline.com" internet kinoteatrı yenilənmiş platformada fəaliyyətə başlayıb. Platforma "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1 mart 2019-cu il tarixli sərəncamına əsasən yaradılıb.

Layihənin məqsədi xaricdə yaşayan soydaşlarımızın ana Vətənlə əlaqələrini möhkəmləndirmək, onları mədəniyyət və kino sahəsində baş verən yeniliklərlə tanış etmək, Azərbaycan kinosunun, televiziyasının və mədəniyyətinin dünya bazarında, eləcə də beynəlxalq auditoriyada populyarlaşmasını təmin etməkdən ibarətdir. Platforma həmçinin gənc kinematoqrafçılarımıza öz işlərini dünya izləyicilərinə təqdim etmək imkanı vermək, Azərbaycan kinematoqrafçıları ilə digər ölkələrdən olan həmkarları arasında iş birliyinin qurulmasına şərait yaratmaq məqsədi daşıyır.

Qeyd edək ki, "Azcinemaonline.com" internet kinoteatrında Azərbaycan kinosunun inciləri ilə yanaşı, ölkəmizin ərazisində xarici kinematoqrafçılar tərəfindən çəkilmiş filmlərlə tanış olmaq, onlara rəy bildirmək və kinotənqidçilərlə birlikdə müzakirələrə qoşulmaq mümkün olacaq. Platforma vasitəsilə bədii, sənədli və animasiya filmlərimizin izlənilməsi sayt istifadəçilərinə bir növ Azərbaycan incəsənətinə açılan pəncərə kimi mədəni zənginliklərimizlə daha yaxından tanışlığa imkan yaradacaq.

Platformada həmçinin bədii, sənədli, qısametrajlı və cizgi filmlərinin (gənc kinorejissorların layihələri üçün) istehsalının maliyyələşdirilməsi və təhsilin maliyyələşdirilməsi üçün ianələrin toplanması, Azərbaycan kinosu veteranlarına maddi yardım göstərmək, habelə tibbi xidmət haqqını ödəmək üçün ianələrin yığılması nəzərdə tutulub.

Onu da əlavə edək ki, platforma üzərindən ilk ianə toplanışı üçün müraciət olunan film İlqar Safatın lentə aldığı "Doğma torpaq" ekran işidir. Filmin tamamlanması üçün müəyyən vəsaitə ehtiyac olduğu bildirilib. Filmin ssenari müəllifi və quruluşçu rejissoru İlqar Safat, quruluşçu operatoru Mindia Esadze, prodüseri Nəriman Məmmədovdur. Tarixi mövzulu film azərbaycanlıların Ermənistandakı tarixi yurdlarından qovulması, Xocalı soyqırımı və torpaqlarımızın işğaldan azad edilməsindən bəhs edir. Filmdə aktyorlar Rüstəm Cəbrayılov, Alina Vorontsova, Hacı İsmayılov, Orxan Abbasov, Azər Aydəmir, Rəşad Səfərov, Qorqud Cəfər, Əminə Abbasova və başqaları çəkilir.

Layihəyə Mədəniyyət Nazirliyi, "Azərbaycanfilm" Kinostudiyası və başqa qurumlar dəstək verib.

**Lalə**

## Xatirə təqvimi — 5–9 mart

### Azərbaycan

**5 mart 1910** – Əməkdar incəsənət xadimi, rejissor Səftər (Əlisəftər) Həbib oğlu Turabov (1910-1989) Bakıda doğulub. Akademik Milli Dram Teatrında işləyib, Azərbaycan Radiosunda radio tamaşaları hazırlayıb.

**5 mart 1919** – Teatr və kino aktyoru, kiçik rolların mahir ifaçısı Məmmədsadıq Qafar oğlu Nuriyev (1919 – 22.3.1975) Bakıda doğulub. Xalq artisti Yaşar Nurinin atasıdır. İrəvan Dövlət Azərbaycan Dram, Gəncə Dram, Musiqili Komediya teatrlarında çalışıb.

**5 mart 1926** – Xalq rəssamı Cahangir Mahmud oğlu Rüstəmov (1926 – 13.2.2007) Şəki şəhərində anadan olub. Tarixi mövzuda əsərlər, məişət tabloları, mənzərələr, portretlər və natürmortların müəllifidir.

**5 mart 1936** – Görkəmli ədəbiyyatşünas alim, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, AMEA-nın müxbir üzvü Yaşar Vahid oğlu Qarayev (1936 – 25.8.2002) Şəkidə doğulub. AMEA-nın Ədəbiyyat İnstitutunun direktoru olub.

**5 mart 1947** – Ədəbiyyatşünas, yazıçı Vaqif Minad oğlu Arzumanlı (1947 – 9.7.2014) Qubada doğulub. Kitabları: "Dədə Qorqudun qəbrinin izi ilə", "Mirzə Fətəli Axundzadə və Qərbi Avropa ədəbi-nəzəri fikri" və s.

**5 mart 1953** – Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, ədəbiyyatşünas Kamran İmran oğlu Əliyev (1953 – 23.12.2020) Naxçıvan MR Şərur rayonunun Diyadin kəndində anadan olub.

**5 mart 1956** – Şair Sabir Sarvan (Sabir Soltan oğlu Məlikov; 1956-2017) Ağsunun Pirhəsənli kəndində doğulub. "Gördüyüm göy üzü, baxdığım işıq", "Özümü sözə çevirdim" və s. kitabların müəllifidir.

**5 mart 1970** – Əməkdar incəsənət xadimi, rəssam Reyhan İbrahim qızı Topçubaşova (15.12.1905 – 1970) vəfat edib. Portret ("M.Ə.Sabir"), mənzərə ("Mərdəkanın görünüşü") janrlarında, məişət mövzusunda ("Köhnə bazar", "Toy") əsərlər, natürmortlar çəkib.

**6 mart 1931** – Əməkdar incəsənət xadimi, ədəbiyyatşünas, yazıçı Fərman Allahverdi oğlu Eyvazov (1931-1996) anadan olub.

**6 mart 1955** – Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu, yazıçı-publisist Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (31.1.1884 – 1955) Ankarada vəfat edib. Xalq Cümhuriyyətinin süqutundan (1920) sonra Avropada, Türkiyədə Azərbaycan mühacirətinə rəhbərlik edib. "Azərbaycan şairi Nizami", "Çağdaş Azərbaycan ədəbiyyatı" və s. əsərlərin müəllifidir.

**7 mart 1908** – Xalq rəssamı Salam Əbdülqasım oğlu Salamzadə (1908-1997) anadan olub. Azərbaycan modernizminin nümayəndələrindən biridir. Əsərləri: "Toxuculuq fabriki", "Fermada qadın" və s.

**7 mart 1926** – Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndəsi Aşıq Ələsgər (1821-1926) vəfat edib. 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində doğulub. 1918-ci ildə qaçqınlıq taleyi yaşayıb, ömrünün sonuna yaxın doğulduğu kəndə qayıdıb və orada dünyasını dəyişib.

**7 mart 1926** – Şərqşünas, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Böyükağa Murtuza oğlu Hüseynov (1926-1983) Bakıda anadan olub.

**7 mart 1940** – Bakıda Azərbaycan rəssamlarının birinci qurultayı işə başlayıb. Qurultayda İsmayıl Axundov Azərbaycan Rəssamlar İttifaqı Rəyasət Heyətinin sədri, Mürsəl Nəcəfov məsul katib seçilib.

**7 mart 1945** – Xalq artisti Xuraman Abdulla qızı Hacıyeva (1945 – 15.2.2005) anadan olub. "Arşın mal alan" (1965), "Lətifə" və s. filmlərdə çəkilib. Gənc Tamaşaçılar, Naxçıvan Musiqili Dram teatrlarında işləyib.

**8 mart 1911** – Xalq artisti Ağadadaş Gülməmməd oğlu Qurbanov (1911 – 25.6.1965) anadan olub. Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında çıxış edib. "Koroğlu", "Bir qalanın sirri", "Bizim küçə", "Arşın mal alan" (1965, Soltan bəy) və s. filmlərdə çəkilib.

**8 mart 1923** – Ədəbiyyatşünas, teatrşünas Ədilə Əlihüseyn qızı Əliyeva (1923-1984) Bakıda anadan olub.

**8 mart 1935** – Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə Dövlət Teatr Muzeyinə (1934-cü ildə yaradılıb) görkəmli dramaturq Cəfər Cabbarlının adı verilib.

**8 mart 1940** – Kinooperator Ramiz Əlirza oğlu Babayev (1940 – 11.1.1994) Bakının Əmircan qəsəbəsində doğulub. 1957-ci ildən "Azərbaycanfilm" Kinostudiyasında işləyib.

**8 mart 1947** – Şair, publisist Ağamalı Sadiq Əfəndi (Ağamalı Əhməd oğlu Əfəndiyev; 1947-1995) Qazax rayonunun Qaymaqlı kəndində doğulub. Kitabları: "Əyil, səndən keçim, dünya", "Vətən üçün yaşanmış əfəndi ömrü" və s.

**8 mart 2006** – Xalq artisti, tanınmış teatr və kino aktyoru Əliabbas Gülabbas oğlu Qədirov (15.2.1946 – 2006) vəfat edib. Akademik Milli Dram Teatrının direktoru (2002-2006) olub.

**9 mart 1893** (bəzi mənbələrdə 12 dekabr) – Görkəmli aktyor, rejissor, Xalq artisti Abbas Mirzə Mirzə Əbdülrəsul oğlu Şərifzadə (1893 – 16.11.1938) Şamaxıda anadan olub. Azərbaycan milli teatr tarixində müstəsna xidmətlər göstərib, dram və opera tamaşalarına quruluş verib. "Bismillah" (1925), "Hacı Qara" (1929) filmlərinin rejissoru olub. 1938-ci ildə repressiya olunub və güllələnib.

**9 mart 1915** – Xalq rəssamı Kamil Əli Abbas oğlu Xanlarov (1915-1996) anadan olub. Füsunkar təbiət lövhələrini kətana köçürüb: "Zaqatala dağları", "Şuşa", "Araz sahilində", "Ordubadda qış" və s. Filmlərdə ("Kəndlilər", "Fətəli xan") geyim rəssamı işləyib.

**9 mart 1929** – Tanınmış diktor, Əməkdar artist Gültəkin Əjdər qızı Cabbarlı (1929 – 15.10.1996) anadan olub. Azərbaycanda peşəkar diktorluq məktəbinin yaranmasında xüsusi xidmətləri olub.

**9 mart 1952** – Əməkdar incəsənət xadimi, aktyor, rejissor Əhməd Haşım oğlu Qəmərli (Məlikov; 1880-1952) vəfat edib. Bakı Azad Tənqid-Təbliğ Teatrında çalışıb. Filmlərdə çəkilib. Kiçik pyeslər yazıb.

### Dünya

**5 mart 1922** – İtalyan rejissoru, yazıçı, şair Pyer Paolo Pazolini (Pier Paolo Pasolini; 1922-1975) anadan olub.

**5 mart 1934** – Türk kinorejissoru Halit Refiğ (1934-2009) anadan olub.

**6 mart 1475** – İtalyan rəssamı, Avropa İntibahının görkəmli sənətkarı Mikelancelo Buonarrotti (Michelangelo di Lodovico Buonarroti Simoni; 1475 – 18.2.1564) anadan olub. Rəssamlıqla yanaşı, heykəltəraş, memar, şair kimi də tanınıb.

**6 mart 1909** – Polyak satirik yazıçısı, şair, filosof Stanislav Yeji Les (Stanislaw Jerzy Lec; 1909-1966) anadan olub.

**6 mart 1928** – Kolumbiya yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1982) laureatı Qabriel Qarsia Markes (Gabriel Jose de la Concordia Garcia Marquez; 1928 – 17.4.2014) anadan olub.

**7 mart 1875** – Fransız impressionist bəstəkarı, XX əsr musiqisinin islahatçılarından Moris Ravel (Joseph Maurice Ravel; 1875-1937) anadan olub.

**7 mart 1924** - Yapon yazıçısı, dramaturq, ssenarist Kobe Abe (əsl adı Abe Kimifusa; 1924-1993) anadan olub.

**7 mart 1941** – Rusiyanın Xalq artisti Andrey Mironov (Menaker; 1941-1987) anadan olub.

**8 mart 1575** – Alman filosofu Yakob Böme (Jakob Böhme; 1575-1624) anadan olub.

**8 mart 1851** – Maarifçi, mütəfəkkir, naşir İsmayıl Qaspıralı (Qasprinski; 1851 - 24.9.1914) Krımın Qaspıra şəhərində doğulub.

**9 mart 1814** – Ukrayna şairi, yazıçı, rəssam Taras Qriqoryeviç Şevçenko (1814 - 10.3.1861) anadan olub.

**9 mart 1934** – Moldova aktyoru, SSRİ Xalq artisti Mixay Volontir (1934 – 15.9.2015) anadan olub. Azərbaycanda "Tütək səsi" filmində çəkilib.

**Hazırladı: Vüqar Orxan**

№18 (1891)
4 mart 2022
www.medeniyyet.az

# "Bir xalqın tarixi – bütün dünya üçün"

## Milli Xalça Muzeyində Bakıda doğulmuş israilli rəssamın sərgisi

əvvəli səh. 1-də

Direktor diqqətə çatdırdı ki, ekspozisiyada həmçinin rəssamın kolleksiyasından köhnə açıqcalar, XIX-XX əsrlərə aid dekorativ-tətbiqi sənət əsərləri – dini əşyalar, zərgərlik məmulatları, silahlar, mis qablar, milli geyim elementləri təqdim olunur. Sərgidəki bütün eksponatları bir mövzu birləşdirir – bu, özünəməxsus mədəniyyətə malik dağ yəhudilərinin tarixi və adət-ənənələridir.

"Azərxalça" ASC-nin istehsalat üzrə direktoru Əlisəfa Nuriyev çıxışında rəssamın "Qırmızı qəsəbədən Quba xalçaçıları" əsəri əsasında toxunan xalça haqqında fikirlərini bölüşdü. Bildirdi ki, əsərdə azərbaycanlı və yəhudi ruhu bir vəhdətdə görünür. Rami Meirin bu ideyası xalqlar arasında bir körpü yaradır.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva dedi ki, Sami Meirin yaradıcılığı onun Azərbaycana olan münasibətinin göstəricisidir. Azərbaycan tarix boyu multikultural bir dövlət kimi heç bir xalq arasında fərq qoymayıb. Azərbaycan və yəhudi xalqlarını hər zaman dərin tellər birləşdirib. 44 günlük Vətən müharibəsində də bu birliyin şahidi olduq.






İsrail səfirliyinin əməkdaşı Mark İfraimov bildirdi ki, sərgidə nümayiş olunan əsərlər Azərbaycan mədəniyyətinin nümunələridir. Çünki Azərbaycan çoxmillətli ölkədir.

Sərginin kuratoru Mariya Filatova isə Rami Meirlə tanışlığından danışdı. Bildirdi ki, 1980-ci illərdə o, Bakıda Rami Meirlə bir küçədə yaşayıb. Onun özünəməxsus dəst-xətti var.

Xalça Muzeyində ona yer ayırdıqları üçün təşəkkürünü ifadə edən Rami Meir dedi: "Bu ekspozisiya mənim üçün çox vacibdir. Çünki mən burada təkcə şəxsi kolleksiyamı deyil, həm də dağ yəhudilərinin mədəniyyətini təqdim edirəm. Mənə göstərdiyi səmimi münasibətə görə Azərbaycan xalqına minnətdaram. Dağ yəhudiləri məhz Azərbaycanda sülh şəraitində yaşamaq, əkinçilik, sənətkarlıq və ticarətlə məşğul olmaq imkanı əldə ediblər. Xalqımız Qubanı ana yurdu adlandırır".

Rəssam təəssüratlarını bizimlə də bölüşdü: "Vətəndə olmağıma görə çox xoşbəxt və sevincliyəm. Bu mənim doğma Bakıda təşkil olunan ilk fərdi sərgimdir. Azərbaycan Milli Xalça Muzeyinə heyranam, onun kolleksiyası böyük diqqətə layiqdir. Muzeyin eksponatları ilə tanış oldum və onlar məndə böyük təəssürat yaratdı. Sərgilənən əsərlər vasitəsilə mən xalqımın, ailəmin, dağ yəhudilərinin tarixini təqdim etmək istədim. Bu sərgi tematikdir. Mən Bakıda anadan olmuşam, 1990-cı ildə İsrailə köçmüşəm. Tablom əsasında hazırlanan xalça ilə bağlı onu demək istərdim ki, gələcəkdə bu xalça ABŞ, Fransa və digər ölkələrdə keçiriləcək sərgilərdə nümayiş etdirilsə, maraqlı olardı".

Azərbaycan Milli Xalça Muzeyinin 55-ci yubiley ilinə təsadüf edən "Bir xalqın tarixi – bütün dünya üçün" sərgisi aprelin 1-dək davam edəcək.

**Lalə Azəri**

# "İRS" beynəlxalq jurnalı qazax dilində

Azərbaycan haqqında həqiqətlərin dünyada yayılmasına töhfə verən "İRS" beynəlxalq jurnalının qazax dilində ("İRS-MYRA") növbəti nömrəsi çapdan çıxıb.

Jurnalın bu nömrəsində ölkəmizin, o cümlədən Qarabağın mədəniyyəti, qədim tarixi, Ermənistanın işğalçı siyasəti və onun məkrli nəticələri, İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıqlar haqqında məlumatlar yer alıb.

Qazaxıstan Respublikası Parlamenti Məclisinin (aşağı palata) Xarici əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Ayqul Kuspan "Azərbaycan qeydləri" başlıqlı məqaləsində ötən ilin sentyabr ayında Azərbaycana səfəri haqda təəssüratlarını bölüşüb, Qarabağda aparılan quruculuq işləri barədə məlumat verib.

Almas Altay "Azad Qarabağ: Türk dünyasının ortaq qələbəsi" adlı məqaləsində Azərbaycanın 2020-ci ildə 44 günlük müharibədə Qələbəsindən sonra yeni geosiyasi vəziyyətin formalaşmasından bəhs edir.

Nurgeldi Əbdiğaniulı "Bülbül gülü, həm də azad Şuşa" adlı məqalə Azərbaycan ədəbiyyatının və mədəniyyətinin beşiyi olan qədim şəhərimiz haqqındadır.

Rusiyalı alim, tarix elmləri namizədi Oleq Kuznetsovun "Qarabağ: hərb və sülh" məqaləsində Azərbaycanın işğal olunmuş ərazilərində maddi mədəniyyət abidələrimizin ermənilər tərəfindən dağıdılması oxucuların diqqətinə çatdırılır.

Qazaxıstan M.Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutunun baş direktoru Kenjexan Matıjanov "Nizami aləmi" məqaləsində böyük Azərbaycan şairi və mütəfəkkirinin əsərləri və ölməz ideyaları haqqında məlumatları qazax dilində oxucuların diqqətinə çatdırır.

Əl-Fərabi adına Qazax Milli Universitetinin rektoru Janseyit Tüymebayevin "Zirvələrə yüksələn qardaş ölkə" adlı məqaləsində ölkələrimizin müstəqillik illərində tarixi dostluqdan strateji müttəfiqliyə gedən yolda qazandığı uğurlardan bəhs olunur.




# Səyyah Marişa dolmanı çox bəyənib



Yaponiyanın "wpb.shueisha.co.jp" saytında tanınmış səyyah Marişanın Bakının memarlıq gözəllikləri və Azərbaycan mətbəxindən bəhs edən təəssüratları barədə məqalə yayımlanıb.

Yaponiyada "Səyyah Marişa" adı ilə tanınan Mariko Hirakava məqaləni bu yaxınlarda Azərbaycana baş tutan səyahətindən sonra yazıb.

"Dünyanı heyran edən memarlıq və yapon mətbəxini xatırladan Azərbaycan dolması" adlı məqalədə müəllif Bakıya səfəri zamanı ilk addımdan heyranlığını saxlaya bilmədiyini vurğulayır. Qeyd edir ki, Bakının bir çox səyyahlar tərəfindən "İkinci Dubay" adlandırılmasının təsadüfi olmadığını öz gözləri ilə görüb. Vurğulayır ki, Azərbaycan neft və qazdan gələn mənfəət hesabına paytaxtın mükəmməl inkişafını təmin edib.

Azərbaycan mətbəxi ilə tanışlığı barədə yazan müəllif sifariş verdiyi ilk yeməyin "dolma" adı ilə onun diqqətini cəlb etdiyini bildirir. Bu adın ona Özbəkistandan tanış olduğunu, lakin Azərbaycanda onun tamamilə fərqləndiyini qeyd edir. Səyyah Marişa "üç bacı" dolmasının dadı ilə onu valeh etdiyini vurğulayır, yeməyin hazırlanması zamanı istifadə edilən inqredientlər barədə yapon oxuculara ətraflı məlumat verir. Qeyd edir ki, Azərbaycanda dolmanın müxtəlif tərəvəzlərdən, ət və yaponların sevimli yeməyi olan düyüdən hazırlanan bir çox növləri məlumdur. Səyyah restoranın mətbəxində dolamanın hazırlanmasını videoya çəkərək, bunu həm məqalədə, həm də özünün sosial şəbəkə səhifələrində paylaşıb.

Məqaləyə Bakının memarlığı və Azərbaycan mətbəxini əks etdirən fotolar əlavə edilib.

Səyyah Marişa son 12 ildə dünyanın 125 ölkəsinə səfər edib, Yer kürəsini 5 dəfə dolanıb. Onun sosial şəbəkələrdəki səhifələrinin yüz minlərlə izləyicisi var.

## Bakıda yapon yeməklərinin təqdimatı

Martın 2-də Yaponiyanın Azərbaycandakı Səfirliyi tərəfindən yapon yeməklərinin təqdimatı keçirilib. Yeməkləri səfirliyin aşpazı Matsuşita Taisei təqdim edib.

Tədbirdə çıxış edən Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vada qonaqları salamlayaraq bildirib ki, bu il Yaponiya-Azərbaycan münasibətlərinin bərpasının 30 illiyi tamam olur. Bu münasibətlə Azərbaycanın bir sıra rayon və şəhərlərində tədbirlər keçiriləcək. Qeyd edib ki, tədbirin məqsədi yapon mətbəxinin tanıdılmasıdır. İştirakçılar yapon mətbəxinin təamlarından dadıb, yeməklər haqqında məlumat əldə ediblər.

# Rusiya vətəndaşlığı olan Depardye mövqeyini açıqlayıb

## "Bu qardaş müharibəsinin əleyhinəyəm"



2013-cü ildə Rusiya vətəndaşlığını qəbul etmiş fransalı aktyor Jerar Depardye Ukraynadakı hərbi əməliyyatlara münasibətini ilk dəfə ifadə edib. O, tərəfləri sülh danışıqlarına başlamağa çağırıb.

Aktyor bu barədə "France-Presse" agentliyinə açıqlamasında bildirib.

"Rusiya və Ukrayna həmişə qardaş ölkələr olub. Bu qardaş müharibəsinin əleyhinəyəm. Müharibəni dayandırın və danışıqlar aparın", – deyə Jerar Depardye bildirib.

Qeyd edək ki, aktyor Fransanın keçmiş Prezidenti Fransua Ollandın ölkənin ən varlı vətəndaşlarına 75 faiz vergi tətbiq etmək niyyətinə etiraz olaraq Rusiya vətəndaşlığı istəyib. Depardye 2013-cü ildə Rusiya Prezidenti Vladimir Putinlə görüş zamanı pasportunu alıb.

# "Oskar"da tamaşaçı zövqü

Amerika Kino Akademiyası 94-cü "Oskar" təqdimatı ərəfəsində tamaşaçıların səsverməsinin nəticələrinə əsasən siyahını dərc edib.

Siyahıda "Hörümçək adam 3. Geriyə yol yoxdur", "Avengers 4. Final", "Matriks", "Arzuladığım qızlar" və "Zak Snayderin ədalət liqası" filmləri yer alıb. Tamaşaçılar adları çəkilən filmlərə səs verə bilər.

Fevralın 15-də Amerika Kino Akademiyası mükafatlar sırasına "tamaşaçının zövqü" nominasiyasının əlavə olunduğunu elan edib. Tamaşaçılar #OscarsFanFavorite həştəqindən istifadə edərək akademiyanın "Twitter" səhifəsində bəyəndiyi filmlərə səs verə bilər.

94-cü "Oskar" mükafatlarının təqdimetmə mərasimi martın 27-də Los-Ancelesdə keçiriləcək.

# 80 milyonluq "İşıq imperiyası"

Belçikalı sürrealist rəssam Rene Maqritin (1898-1967) "İşıq imperiyası" əsəri Londondakı "Sotheby's" hərrac evində 59,4 milyon funta (təqribən 79,8 milyon dollar) satılıb. Bu barədə hərrac evi məlumat yayıb.



1961-ci ildə çəkilmiş tabloda toran vaxtı villa təsvir edilib. Evdə artıq işıq, binanın qarşısında isə ağ buludlu parlaq səma ilə tam ziddiyyətdə olan fənər yandırılıb.

"İşıq imperiyası" əsəri 2009-2020-ci illərdə Brüsseldəki Maqrit Muzeyində nümayiş olunub. Tablo Belçikanın paytaxtı ilə yanaşı, Paris, Vyana, Milan, Seul, Edinburq və San-Fransiskoda da sərgilənib. Rəssamın bu seriyadan digər işləri Venesiya, Nyu-York, Hyuston və Brüssel muzeylərinin kolleksiyalarına daxildir.

**Cavid**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 191 il əvvəl...

**5 mart 1831-ci ildə** Lənkəranda Rusiya işğalı əleyhinə üsyan başlayıb. Devrildikdən sonra İrana qaçan Mirhəsən xan Lənkərana gələrək üsyana başçılıq edib. Talış (Lənkəran) xanlığı Gülüstan müqaviləsi ilə (1813) Rusiyaya birləşdirildikdən sonra 1826-cı ildə ləğv edilmişdi. Lənkəran üsyanı iki ay sürdü.

### 112 il əvvəl...



**8 mart 1910-cu ildə** Kopenhagendə (Danimarka) sosialist qadınların beynəlxalq konfransında Klara Setkinin təklifi ilə 8 martın qadınların həmrəyliyi günü kimi qeyd edilməsi qərara alınıb. İlk dəfə 1911-ci ildə Almaniya, Avstriya, İsveçrə, Danimarkada, iki il sonra Rusiyada qeyd olunub. 1966-cı ildə 8 mart SSRİ-də istirahət günü elan edilib. BMT tərəfindən beynəlxalq günlər sırasına daxil edilib.

### 105 il əvvəl...

**6 mart 1917-ci ildə** Rusiyanın "Müvəqqəti hökumət"i Finlandiyaya muxtariyyət verib. Çar II Nikolay taxt-tacdan əl çəkəndən sonra hakimiyyəti ələ alan "Müvəqqəti hökumət" liberal siyasəti ilə tarixə düşdü. Oktyabr inqilabından sonra bolşeviklər də Finlandiyanın müstəqillik faktı ilə barışmalı oldular. Finlandiya XVIII əsrin əvvəlində Şimal müharibəsi (Rusiya-İsveç) nəticəsində qismən Rusiyanın nəzarətinə keçmişdi.

### 89 il əvvəl...

**5 mart 1933-cü ildə** Adolf Hitlerin Nasional-Sosialist Partiyası Almaniya parlamentinə (Bundestaq) seçkilərdə yerlərin yarısını əldə edib. Bir qədər əvvəl prezident Qindenburq Hitleri kansler təyin edərək koalision hökuməti qurmağı ona tapşırmışdı. Parlament seçkisində qələbə sayəsində Hitler kansler postunda möhkəmləndi, Qindenburq vəfat edəndən (1934) sonra özünü Almaniyanın mütləq rəhbəri – reyxsfüreri elan etdi.

### 78 il əvvəl...



**6 mart 1944-cü ildə** SSRİ Xalq Komissarları Soveti "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında" qərar qəbul edib. Qərarda Azərbaycan dilində ordu qəzeti nəşr etmək, Cənubi Azərbaycan yazıçı-şairlərinin əsərlərinin nəşri üçün Təbrizdə mətbəə açmaq, Azərbaycan Dövlət Dram Teatrının Cənubi Azərbaycan şəhərlərinə qastrolunun təşkili kimi məsələlər əksini tapmışdı.

### 69 il əvvəl...

**5 mart 1953-cü ildə** Sovet İttifaqını 31 il idarə etmiş İosif Vissarionoviç Stalin Kuntsevodakı (Moskva yaxınlığında) bağ evində vəfat edib. Stalin martın 2-də beyninə qan sızması nəticəsində koma vəziyyətinə düşmüşdü.

### 66 il əvvəl...

**9 mart 1956-cı ildə** Gürcüstanın paytaxtı Tbilisidə sovet dövlətinin rəhbəri Nikita Xruşşovun Stalin əleyhinə çıxışına ("Şəxsiyyətə pərəstiş" barədə məruzə) etiraz olaraq başlanan nümayişlər silah gücünə yatırılıb.

### 57 il əvvəl...



**7 mart 1965-ci ildə** Amerika dəniz piyadalarının desantı Cənubi Vyetnam sahillərinə çıxarılıb. ABŞ-ın Vyetnama qarşı müharibəsi başlayıb. Yeddi ilə yaxın sürən müharibədə amerikalılar istəklərinə nail ola bilmədilər və Vyetnamdan çıxmalı oldular.

### 30 il əvvəl...

**6 mart 1992-ci ildə** Azərbaycan Respublikası Ali Sovetinin Xocalı faciəsi ilə bağlı çağırılan fövqəladə sessiyasında Prezident Ayaz Mütəllibov istefa verməyə məcbur olub. Bir gün öncə spiker Elmira Qafarova da istefa vermişdi. Ali Sovetin sədri seçilən Yaqub Məmmədov prezident səlahiyyətlərini də icra etməyə başlayıb.

**Hazırladı: V.Orxan**

"Mədəniyyət" qəzetinin kollektivi iş yoldaşları Mehparə Sultanovaya anası

**Mənsumə Sultanovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 669
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641